AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 APREL 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 90 (6123) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Rusiyanın iqtisadi inkişaf nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olundu.

Ötən il, eləcə də bu ilin ilk rübünün nəticələrinə əsasən ticarət dövriyyəsinin artmasını iqtisadi əlaqələrimizin genişlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev bunun ümumilikdə ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi olduğunu vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin birgə səmərəli fəaliyyəti nəticəsində iqtisadi əlaqələrin möhkəmləndiyini, eləcə də ayrı-ayrı müəssisələr arasında əməkdaşlığın gücləndiyini dedi. Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Maksim Oreşkin bir daha prezident seçkilərində inamlı qələbəsi münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, seçkilərin nəticələri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi və iqtisadi kursa xalq tərəfindən verilən möhkəm dəstəyin təzahürüdür və Azərbaycanda hökm sürən sabitlik böyük önəm daşıyır. Rusiyalı qonaq qeyd etdi ki, hətta Bakıya son gəlişindən keçən bir neçə ay ərzində iqtisadi əməkdaşlıq istiqamətində irəliyə doğru bir sıra ciddi addımlar atılıb. Maksim Oreşkin azərbaycanlı həmkarları ilə birgə məhsuldar fəaliyyətin həyata keçirildiyini məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, investisiya, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamına əlavələr edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli 9 nömrəli Sərəncamına əlavə olaraq, aşağıdakı şəxslər Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri təyin edilsinlər:

*1.1.* Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri - Muxtar Bahadur oğlu Babayev;

*1.2.* Azərbaycan Respublikasının gənclər və idman naziri - Azad Arif oğlu Rəhimov;

*1.3.* Azərbaycan Respublikasının mədəniyyət naziri - Əbülfəs Mürsəl oğlu Qarayev;

*1.4.* Azərbaycan Respublikasının müdafiə sənayesi naziri - Yavər Talıb oğlu Camalov;

*1.5.* Azərbaycan Respublikasının səhiyyə naziri - Oqtay Kazım oğlu Şirəliyev;

*1.6.* Azərbaycan Respublikasının təhsil naziri - Ceyhun Əziz oğlu Bayramov;

*1.7.* Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri - Hicran Kamran qızı Hüseynova;

*1.8.* Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri - Fuad Rauf oğlu Muradov;

*1.9.* Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri - Mübariz Qəhrəman oğlu Qurbanlı;

*1.10.* Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri - Səfər Məmməd oğlu Mehdiyev;

*1.11.* Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri - Tahir Yaqub oğlu Budaqov;

*1.12.* Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri - Kərəm Əvəz oğlu Həsənov;

*1.13.* Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri - Fuad Hümbət oğlu Nağıyev;

*1.14.* Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri - Qoşqar İlahi oğlu Təhməzli;

*1.15.* Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi - Vüsal Əfqan oğlu Hüseynov;

*1.16.* Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi - Arzu Yusif oğlu Rəhimov.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## Əfqanıstan İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Əşrəf Qaniyə

Hörmətli cənab Prezident,

Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Biz bu amansız terror aktından son dərəcə hiddətlənir, dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərinə qarşı daha qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## C.Ə.Bayramovun Azərbaycan Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## S.M.Mehdiyevin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səfər Məmməd oğlu Mehdiyev Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda oftalmologiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Kərimov Kərəm Təbriz oğlu

**"Əməkdar həkim"**

Ağayev Misirxan Muradxan oğlu
Şamilova Faiqə Hacıbala qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## Mehdi Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin may ayında Azərbaycanın görkəmli teatr rejissoru, tanınmış aktyor, teatrşünas alim və pedaqoq, SSRİ Xalq Artisti, SSRİ Dövlət mükafatı laureatı, sənətşünaslıq doktoru, professor Mehdi Əsədulla oğlu Məmmədovun anadan olmasının 100 illiyi tamam olur.

Nadir istedada malik rejissor kimi Mehdi Məmmədov milli teatr səhnəsində Azərbaycan və dünya dramaturji irsinin dərin məzmunlu və rəngarəng janrlı nümunələrinə verdiyi mükəmməl quruluşlarla ölkə teatrı tarixinə parlaq səhifələr yazmışdır. Sənətkarın canlandırdığı obrazlar yüksək ifaçılıq nümunələridir. Mehdi Məmmədov pedaqoji sahədəki uzunmüddətli dolğun fəaliyyətini, eyni zamanda, səmərəli elmi yaradıcılıqla ahəngdar şəkildə əlaqələndirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın teatr ənənələrinin yeni nailiyyətlərlə daha da zənginləşdirilməsində diqqətəlayiq xidmətlər göstərmiş böyük sənətkar Mehdi Məmmədovun 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq Artisti Mehdi Məmmədovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## Mədəni irsin qorunması və bərpası sahəsində çalışan bir qrup mütəxəssisə fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mədəni irsin qorunması və bərpası sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar memar"**

Hüseynova Leyla Qafar qızı
Məmmədov Ədalət Eyvaz oğlu

**"Əməkdar mühəndis"**

Kərimli Telman Nəcəf oğlu
Sultanov Zakir İmran oğlu

**"Əməkdar mədəniyyət işçisi"**

Nuriyev Fuad Lütvəliyeviç.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Ölkə rəhbəri kimi yüksək vəzifəyə yenidən seçilməyiniz təkcə Azərbaycan xalqının Sizə bəslədiyi etimadın göstəricisi deyil, eyni zamanda, Azərbaycan Respublikasının inkişafı naminə verilmiş mandatdır.

Pakistan və Azərbaycan strateji tərəfdaşlar olmaqla yanaşı, onlar həm də aralarında qədim mədəniyyət bağları və ortaq adət-ənənələri olan qardaş dövlətlərdir. Zati-aliləri, Sizin ötən ilin mart ayında Pakistana səfəriniz ölkələrimiz arasında mövcud olan dostluq və xeyirxah münasibətlərə əlavə stimul verdi. Ölkələrimiz arasındakı ikitərəfli əlaqələri Pakistan və Azərbaycan xalqlarının ortaq maraqları naminə bundan sonra da möhkəmləndirmək istiqamətində Sizinlə yaxından işləmək niyyətindəyik.

Yaranmış imkandan istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı inkişaf və yüksəliş arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Məmnun Hüseyn**
**Pakistan İslam Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edir, ali dövləti vəzifənizdə uğurlar diləyirəm.

Ölkələrimizi birləşdirən dostluq əlaqələrinin möhkəmləndirilməsi, Azərbaycanın rifahı və bütün soydaşlarınızın xoşbəxtliyi üçün ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

**Filip**
**Belçikalıların Kralı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Hindistan xalqı adından və şəxsən öz adımdan təbrik etməkdən məmnunluq duyuram.

Hindistan və Azərbaycan arasındakı dostluq münasibətləri sıx tarixi əlaqələrə və bir çox sahələrdə inkişaf edən ikitərəfli əməkdaşlığa əsaslanır. Əminəm ki, birgə səylərimiz ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirəcək və ümumi maraq doğuran sahələrdə qarşılıqlı əməkdaşlığı genişləndirəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqının rifahı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzu edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Ram Nat Kovind**
**Hindistan Respublikasının Prezidenti**

## “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1064-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1064-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

## “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 4; 2001, N 3, maddə 141; 2007, N 12, maddə 1212; 2008, N 11, maddə 960; 2014, N 4, maddə 331; 2015, N 4, maddə 352; 2016, N 3, maddə 419) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 12-ci maddənin ikinci hissəsində “dövlət orqanıdır” sözləri “qurumdur” sözü ilə əvəz edilsin.

**2.** 16-cı maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Mülkiyyət formasından asılı olmayaraq, müəssisə, idarə və təşkilatlar tərəfindən icbari tibbi sığorta müqaviləsinin bağlanılmasından imtina edilməsi, sığorta haqlarının hesablanması üçün məbləğlərin gizlədilməsi və ya aşağı salınması, ödənilməsi müddətlərinin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda inzibati məsuliyyət yaradır.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## “Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 may tarixli 866 nömrəli Fərmanının ləğv edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

“Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 may tarixli 866 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 5, maddə 229; 2014, N 5, maddə 477; 2016, N 8, maddə 1384) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 aprel 2018-ci il.**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, əziz dostum.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə ardıcıl olaraq dördüncü dəfə seçilməyiniz münasibətilə İsrail hökuməti adından mənim səmimi təbriklərimi qəbul edin.

İsrail ilə Azərbaycan arasında sıx dostluq və əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək üçün bundan sonra da Sizinlə əlaqələrimizi davam etdirmək niyyətindəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizə münasib olan vaxtda İsrailə səfər etməyiniz barədə təklifimi yenidən ali diqqətinizə çatdırıram. 2016-cı ilin dekabrında Bakıya unudulmaz səfərim zamanı Sizin mənə göstərdiyiniz səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Zati-aliləri, Sizi ən qısa zamanda yenidən görməyə ümidvaram.

*Səmimiyyətlə,*

**Benyamin Netanyahu**
**İsrail Dövlətinin Baş naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Aprelin 11-də keçirilmiş prezident seçkilərində qazandığınız parlaq qələbə qardaş Azərbaycan xalqının Sizə bəslədiyi sevgi və ehtiramla yanaşı, verdiyi böyük dəstəyin göstəricisidir.

Atanız, möhtərəm dostum Heydər Əliyevin siyasətini davam etdirərək təhvil aldığınız bayrağı zirvəyə qaldırmağınızı, yürütdüyünüz siyasət və həyata keçirdiyiniz nəhəng layihələrlə Azərbaycanı etimad və sabitlik şəraitində inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltməyinizi böyük məmnunluq və qürurla izləyirəm.

Sizi bir daha təbrik edir, qarşıdakı yeni dövrün Sizə, ailənizə və bütün qardaş Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik, uğurlar gətirməsini diləyir, dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**Cumhur Ersümer**
**Türkiyənin sabiq enerji və təbii sərvətlər naziri və Baş nazirin sabiq müavini**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, Sizə cansağlığı və əmin-amanlıq diləyirəm. Yeni prezidentlik dönəmi Sizə, ailənizə, Azərbaycana və bütün türk dünyasına çox düşərli olsun!

*Hörmətlə,*

**Hüseyin Dəmirəl**
**Türk Dünyası Atatürk Liseyinin müdiri**
**Türkiyə, Adana şəhəri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirik. Azərbaycana uğurlar və tərəqqi arzulayırıq.

*Hörmətlə,*

**Sergey Mixaylov**
**Rusiyanın Mejdureçensk şəhərində fəaliyyət göstərən Yaradıcılıq İnnovasiya Mərkəzinin direktoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Gözəl ölkənizdə əldə etdiyiniz misilsiz nailiyyətlərə görə Sizi təbrik etməkdən şərəf duyur və Qüdrətli Allahdan xalqınızın daha böyük tərəqqi arzularını yerinə yetirmək üçün ali dövləti vəzifənizdə böyük uğurlar diləyirəm.

Zati-aliləri, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Əbdüləziz Osman əl-Tuveycri**
**İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) Baş direktoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident.

Əziz İlham Heydər oğlu.

Xalqınızın yüksək etimadını qazanaraq yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Əliyevlər ailəsi, Prezident İlham Əliyev - Azərbaycan xalqının mühüm rəmzləridir. Siz bütün azərbaycanlılar və Azərbaycanın dostları üçün səriştəlilik, mətanət, iradə və ləyaqət rəmzisiniz.

Cənab Prezident, Sizə, ailənizə və bütün Azərbaycan xalqına uğurlar və rifah arzulayıram.

*Dərin hörmətlə, Sizin*

**Ramazan Abdulatipov**
**Rusiya Federasiyası Prezidentinin Xəzər dənizi regionu ölkələri ilə humanitar və iqtisadi məsələlərə dair əməkdaşlıq üzrə xüsusi nümayəndəsi**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən qardaş Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Siz Azərbaycanın iqtisadi qüdrətini, müstəqilliyini daha da möhkəmləndirərək ölkəyə yeni uğurlar qazandıracaqsınız.

*Hörmətlə,*

**Tarqan Ekiz**
**Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə “Yapı Kredi Bank Azərbaycan” adından təbrik edirik. Sizin yorulmaz səyləriniz, uzaqgörənliyiniz və apardığınız siyasət sayəsində Azərbaycan sosial-iqtisadi sahədə, dövlət quruculuğunda və beynəlxalq aləmdə uğurlar qazanmışdır.

Bu xoş fürsətdən istifadə edib, Sizə və ailənizə möhkəm cansağlığı, işlərinizdə uğurlar və qardaş Azərbaycan xalqına rifah arzu edirəm.

*Hörmətlə,*

**Cenk Yüksel**
**“Yapı Kredi Bank Azərbaycan”ın İdarə Heyətinin sədri, baş direktor**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək Azərbaycan ilə Yaponiya arasında mövcud olan səmimi ikitərəfli əlaqələrin möhkəmləndirilməsində böyük səylərinizi vurğulamaq istərdim.

Sizə möhkəm cansağlığı və Azərbaycan Respublikasının daha da inkişaf etdirilməsi istiqamətində ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

**Koişiro Matsuura**
**UNESCO-nun sabiq baş direktoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli İlham Heydər oğlu.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi şəxsən öz adımdan və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kollektivi adından təbrik edim.

Prezident seçkilərində son dərəcə inamlı qələbəniz Sizin həm Azərbaycan xalqı arasında, həm də beynəlxalq aləmdə böyük hörmət qazanmış dövlət xadimi və siyasətçi kimi yüksək nüfuzunuzu təsdiqləyir. Əminəm ki, Sizin yaratdığınız quruculuq potensialı əvvəllər əldə edilmiş nəticələri yeni mərhələdə daha da artırmağa, Sizə etibar edilmiş dövlətin gələcək siyasi və sosial-iqtisadi inkişafı yolunda genişmiqyaslı layihələri həyata keçirməyə imkan verəcək.

Səmimi qəlbdən ümidvar olduğumu bildirirəm ki, Azərbaycan Respublikası ilə Moskva Dövlət Universiteti arasında sıx münasibətlər qorunub saxlanılacaq və möhkəmlənəcək. MDU-nun Bakı şəhərindəki filialı özünün bütün fəaliyyəti dövründə elmin və təhsilin, dövlətlərimiz arasında sülhün və harmoniyanın inkişafına xidmət edəcək.

Möhtərəm İlham Heydər oğlu, Sizə cansağlığı və məsul vəzifənizdə uğurlar, Azərbaycan Respublikasının xalqına əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**Viktor Sadovniçi**
**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Aprelin 11-də keçirilmiş prezident seçkilərində inamlı qələbəniz münasibətilə bütün Azərbaycan xalqının yaşadığı böyük qürur, iftixar, sevinc hissinə və əsl bayram coşqusuna qoşularaq Sizi ürəkdən təbrik edir, Azərbaycanın müstəqilliyi, tərəqqisi və yüksəlişi naminə daha möhtəşəm uğurlar və zəfərlər diləyirik.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının iqtisadiyyatının və sosial sahənin modernləşdirilməsi yolu ilə inamlı irəliləyiş siyasətini dəstəkləyir, Sizə bu yolda Uca Allahdan uğurlar arzulayırıq.

Sizin fədakarlığınız və məharətiniz sayəsində sabitlik və tərəqqi rəmzinə çevrilmiş Azərbaycanda xalq-iqtidar həmrəyliyi gündən-günə möhkəmlənir, vətəndaşların sosial müdafiəsi və maddi rifahı yüksəlir, onlar sabahı inamla qarşılayırlar. Qürurvericidir ki, ölkənin iqtisadi inkişafı nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında layiqli yerini tutub. Bu nailiyyətlər torpaqlarımızın işğaldan tam azad ediləcəyi, Azərbaycan bayrağının Qarabağda dalğalanacağı günün heç də uzaqda olmadığına inamımızı daha da artırır. Bütün bunlar hər birimizdə fəxarət hissi doğurmaqla Sizə dərin hörmət və sonsuz ümumxalq sevgisi qazandırır.

Azərbaycan ilə Türkiyə arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ənənəvi dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərinin inkişafına Siz xüsusi töhfə vermisiniz. Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq bu siyasətin həyata keçirilməsinə daim səy göstərəcəyimiz barədə Sizi əmin etmək istəyirik.

Bu xoş fürsətdən istifadə edərək, təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə bir daha təşəkkür edirik.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı, ailənizə xoşbəxtlik və səadət, Vətənimizin işıqlı sabahları naminə bütün zirvələri fəth etməyi diləyirik.

*Dərin hörmət hissi ilə,*

**Camal Yanqın**
**Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası adından və şəxsən öz adımdan təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikasının Prezidenti vəzifəsində Sizin fəaliyyətiniz bundan sonra da ölkənin dayanıqlı sosial-iqtisadi inkişafına, beynəlxalq birlikdə layiqincə təmsil olunmasına, dövlətlərimiz arasında qarşılıqlı hörmətə və mehriban qonşuluq münasibətlərinə əsaslanan əlaqələrin möhkəmlənməsinə kömək edəcəkdir.

Ümidvarıq ki, Rusiya ilə Azərbaycan arasında çoxşaxəli əməkdaşlıq, o cümlədən parlamentlər səviyyəsində əlaqələr dost ölkələrimizin və xalqlarımızın mənafeyi və rifahı naminə uğurla davam edəcək və genişlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, ali dövləti vəzifənizdə Sizə səmimi qəlbdən səmərəli və məhsuldar fəaliyyət, möhkəm cansağlığı, xoşbəxtlik və rifah arzulayıram.

*Dərin hörmətlə,*

**Valentina Matviyenko**
**Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əziz İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı Sizə səs verməklə şəxsən Zati-alinizə, həmçinin Azərbaycan rəhbərliyinin daxili və xarici siyasət kursuna dərin etimad və ehtiramını əyani sübut etdi.

Şadam ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik ənənələrini Siz və ailəniz ləyaqətlə və şərəflə davam etdirirsiniz.

Məmnunluqla qeyd edim ki, hazırda çalışdığım Çində Azərbaycanın nüfuzu durmadan artmaqdadır.

Tələbəlik illərimizi hər zaman xoş xatirələrlə yada salır, həyatımızın müxtəlif mərhələlərindəki dostcasına görüşlərimizi səmimi duyğularla xatırlayıram. Daimi diqqətinizə və əvəzsiz dəstəyinizə görə bir daha minnətdarlığımı bildirmək istərdim.

Sizə, gözəl və istedadlı ailənizə qardaş Azərbaycanın rifahı naminə möhkəm cansağlığı, xoşbəxtlik və böyük uğurlar diləyirəm.

*Dərin hörmət və səmimi hisslərlə,*

**David Aptsiauri**
**Gürcüstanın Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Rusiyanın “Perm Azərbaycan Milli-Mədəni Muxtariyyəti” İctimai Təşkilatı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyiniz və səyləriniz sayəsində Azərbaycan Respublikası gündən-günə inkişaf edir, sosial, iqtisadi və dini-mənəvi sahələrdə yeni-yeni uğurlar qazanır. Siz Azərbaycanın gələcək maraqlarına cavab verən mühüm dövlət islahatlarını uğurla həyata keçirirsiniz. Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə Sizin verdiyiniz töhfəni yüksək dəyərləndiririk.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının vilayətləri arasında dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına göstərdiyiniz diqqət və dəstəyə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

**Çingiz İsayev**
**Rusiya Federasiyasının “Perm Azərbaycan Milli-Mədəni Muxtariyyəti” İctimai Təşkilatının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm Prezident.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində yenidən inamlı qələbə qazanmağınız münasibətilə Sizi Marneuli əhalisi adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Düşünürəm ki, Azərbaycan xalqı öz seçimi ilə inkişafa doğru daha bir əhəmiyyətli addım atdı. Bu da, əlbəttə ki, ölkənin firavanlığına və inkişafına dəstəkdir.

Əminəm ki, Sizin gələcək fəaliyyətiniz Gürcüstan və Azərbaycan arasında tarixən yaranmış ənənəvi dostluq əlaqələrinin inkişafına və xalqlarımızın firavan yaşamasına xidmət edəcəkdir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası ilə xüsusi bağlantılarım var. Belə ki, Gürcüstan hakimiyyətinin rəsmi missiyası ilə bir neçə il Azərbaycanda fəaliyyət göstərmişəm. Məhz bu səbəbdən Azərbaycanda davam edən əhəmiyyətli prosesləri böyük maraqla izləyirəm.

Cənab Prezident, Sizi parlaq qələbəniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

**Temur Abazov**
**Gürcüstanın Marneuli Bələdiyyəsinin meri**

# Yeni kənd təsərrüfatı naziri İnam Kərimov kollektivə təqdim edilib





**Aprelin 23-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev yeni təyin olunmuş kənd təsərrüfatı naziri İnam Kərimovu nazirliyin kollektivinə təqdim edib.**

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, Ramiz Mehdiyev nazir İnam Kərimovun keçdiyi həyat yolu barədə ətraflı məlumat verərək qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatının ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynadığını, bu sahənin inkişafı ilə bağlı böyük potensial imkanların olduğunu diqqətə çatdırıb. Ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan əsas hədəflərə nail olmaq üçün nazirliyin kollektivinə müvafiq məsləhət və tövsiyələrini verib.

Yeni təyin olunmuş kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısının ona göstərdiyi yüksək etimada görə təşəkkürünü bildirib, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcəyini qeyd edib.

İnam Kərimov Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda bütün sahələrdə olduğu kimi, qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının uğurla inkişaf etdirildiyini bildirib.

Qeyd edək ki, İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı naziri vəzifəsinə təyin edilib.

**AZƏRTAC**

# Yeni nazir kollektivə təqdim edilib





**Azərbaycan Respublikası Prezidentinin 21 aprel 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təyin edilmiş Sahil Rafiq oğlu Babayev nazirliyin kollektivinə təqdim edilib.**

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yeni naziri təqdim edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Sahil Babayevin keçdiyi həyat yolu və iş təcrübəsi barədə məlumat verib.

R.Mehdiyev Azərbaycan Prezidenti İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması sahəsində mühüm addımların atıldığını qeyd edib. O, əmək resurslarının səmərəli məşğulluğunun təminatının, aktiv məşğulluq proqramlarının genişləndirilməsinin, əmək bazarının tənzimlənməsinin ölkədə aparılan sosial-iqtisadi siyasətin əsas prioritetlərindən olduğunu diqqətə çatdırıb. R.Mehdiyev dövlət başçısı tərəfindən əmək və sosial müdafiə sahəsində qarşıya qoyulan vəzifələrin, verilən tapşırıqların icrası ilə bağlı nazirliyin kollektivinə müvafiq məsləhət və tövsiyələrini verib.

Sahil Babayev Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ona göstərilən yüksək etimada görə minnətdarlığını bildirib. O, dövlət başçısının əmək və sosial müdafiə sahəsi ilə bağlı müəyyən etdiyi vəzifələrin layiqli şəkildə icrasının təmin ediləcəyini, nazirliyin fəaliyyətinin bütün istiqamətlərində şəffaflığın tam təmin ediləcəyini, ən mütərəqqi beynəlxalq təcrübəyə uyğun olaraq normativ hüquqi bazanın və inzibati icraatın təkmilləşdiriləcəyini və fəaliyyət zamanı sistemli yanaşma və sosial ədalət prinsiplərinin rəhbər tutulacağını qeyd edib.

**AZƏRTAC**

*Əli HƏSƏNOV:*

# ABŞ Dövlət Departamentinin Azərbaycandakı vəziyyətə münasibəti həmişəki kimi yenə də tendensioz xarakter daşıyır



**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a açıqlamasında ABŞ Dövlət Departamentinin 2017-ci ildə dünya ölkələrində insan haqlarının durumuna dair illik hesabatında Azərbaycanla bağlı əks olunmuş iddialara münasibət bildirib.**

Əli Həsənovun sözlərinə görə, hesabat göstərir ki, Dövlət Departamentinin Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən hadisələrə münasibəti həmişə olduğu kimi, yenə də tendensioz xarakter daşıyır. Hesabatın hazırlanma metodologiyası hər bir məsələyə dair konkret bir, bəzi hallarda isə bir neçə faktın konstatasiyası, onların müəyyən siyasi dairələrin maraqlarına uyğun, qərəzli şəkildə təsviri, müvafiq nəticənin hasil edilməsi və bütün sahə üzrə ümumiləşdirilməsi prinsipi üzərində qurulub. Belə yanaşma, habelə mənbələrin göstərilməməsi, bir qayda olaraq “ekspertlər”, “fəallar”, “QHT təmsilçiləri” və bu kimi müəmmalı “mənbələrə” “istinad edilməsi” hesabatın obyektivliyini və şəffaflığını ciddi şübhə altına alır.

Əli Həsənov qeyd edib ki, 2013-cü il prezident seçkiləri də daxil olmaqla Azərbaycanda keçirilən bütün seçkilər beynəlxalq standartlara və Azərbaycan qanunvericiliyinə uyğun, demokratik, ədalətli və şəffaf olub, xalqın iradəsini əks etdirib. Bu fakt çoxsaylı xarici və beynəlxalq müşahidəçi qrupların açıqlamalarında və hesabatlarında da öz əksini tapıb.

Azərbaycan demokratik dövlətdir, Konstitusiya normalarına uyğun olaraq ölkədə qanunverici, icra və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyəti təmin olunub. Buna görə də hansısa şübhəli “faktlar” əsasında hakimiyyət qanadlarının, ayrı-ayrı dövlət orqanlarının nüfuzunu aşağılayan qərəzli iddiaları qəbul etmirik və onları ciddi əsası olmayan subyektiv mülahizə kimi qiymətləndiririk.

Azərbaycanda söz və məlumat, sərbəst toplaşmaq azadlığı, fikir plüralizmi də daxil olmaqla bütün demokratik normalar təmin olunub. Ölkədə yüzlərlə kütləvi informasiya vasitəsi, çoxsaylı jurnalist ordusu tam sərbəst fəaliyyət göstərir. Sosial şəbəkələrdə istifadəçilərin sayı 3 milyona yaxınlaşır, ölkə əhalisinin 80 faizi internet istifadəçisidir. Bu gün Azərbaycanda 3 mindən çox QHT fəaliyyət göstərir və öz təşəbbüsləri, praktiki addımları ilə cəmiyyət həyatının bütün sahələrinin inkişafına əməli töhfələr verirlər. Odur ki, hesabatda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin “məhdudlaşdırılması” barədə iddialar yalnız təəssüf doğurur.

2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında seçki mədəniyyətinin qənaətbəxş səviyyədə olduğunu təsdiq etməklə yanaşı, həm də partiyaların siyasi proseslərdə iştirak səviyyəsini əyani şəkildə göstərdi. Avropa və Amerikada olduğu kimi, Azərbaycanda da marginallaşmış siyasi qruplar cəmiyyət tərəfindən inkar edilir, öz ambisiyalarını reallaşdırmaq imkanlarını getdikcə itirirlər. Bu, Azərbaycanda siyasi sistemin çatışmazlığı deyil, əksinə, cəmiyyət həyatında təhlükəsizliyi, sabitliyi, tolerantlığı təmin edən mühüm üstünlükdür. Təəssüf ki, Dövlət Departamentinin hesabatında bu kimi məsələlər də tərs-mütənasib təsvir olunur və arzuolunmaz nəticələr hasil edilir.

O ki qaldı, hesabatda “siyasi məhbuslar”, “təzyiqlər”, “həbslər” və digər bu kimi iddialara, hesab edirik ki, Qərb ölkələrində bu cür faktlar daha çoxdur. Həmin faktlar Dövlət Departamenti tərəfindən eyni metodologiya əsasında şərh olunarsa, hansı nəticələrin ortaya çıxacağını təsəvvür edə bilərik...

**AZƏRTAC**

# Azərbaycanda kiçiktonnajlı avtomobillər yığılacaq

**Azərbaycanla Rusiya arasında əlaqələr strateji səviyyədədir, iqtisadi-ticarət sahəsi də daxil olmaqla bütün sahələrdə əməkdaşlıq inkişaf edir.**



AZƏRTAC xəbər verir ki, bunu iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanda səfərdə olan Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkinlə keçirdiyi görüşdə deyib.

Azərbaycan və Rusiya tərəfindən bir sıra dövlət qurumlarının rəhbər şəxslərinin də iştirak etdiyi görüşdə Şahin Mustafayev qeyd edib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 22 faiz artıb. Ticarət əlaqələrinin artım dinamikası 2018-ci ilin I rübündə də davam edib və bu dövrdə ölkələrimiz arasında ticarət dövriyyəsi 32 faiz, Azərbaycanın Rusiyaya ixracı isə 50 faizədək artıb. Azərbaycanın qeyri-neft məhsullarının ixracı üzrə Rusiya birinci yerdədir. Təsadüfi deyildir ki, Azərbaycanın ilk ticarət nümayəndəliyi məhz Rusiya Federasiyasında yaradılıb. 2017-ci ildə Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması Rusiya ilə Azərbaycan arasında ticarət əlaqələrinin genişlənməsində mühüm addımdır. Azərbaycan şirkətləri Rusiyada keçirilmiş “Worldfood Moscow” və “Prodexpo” sərgilərində vahid ölkə stendi ilə təmsil olunub, bu ölkəyə ixrac missiyası təşkil edilib, “Made in Azerbaijan” brendinin təşviqi məqsədilə “Rossiya 24” kanalında Azərbaycan meyvələrinə və meyvə şirələrinə dair videoçarxlar nümayiş olunub.

Nazir Şahin Mustafayev qarşıdakı 5 ildə istehsal ediləcək yerli məhsullara dair Rusiya tərəfinə məlumat təqdim edildiyini və ölkəmizin yaxın 5 ildə Rusiyaya ixracının 3 dəfə artırılmasının hədəf olduğunu bildirib. Qeyd edilib ki, Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard ABŞ dollarına yaxın investisiya yatırıb.

Pirallahı Sənaye Parkında yaradılan Azərbaycan-Rusiya birgə əczaçılıq müəssisəsi də ölkələrimiz arasında əməkdaşlığın önəmli istiqamətlərindəndir. 2018-ci ilin sonunda əczaçılıq zavodunda qablaşdırma xəttinin istifadəyə verilməsi nəzərdə tutulur. Bundan başqa, Hacıqabul Sənaye Məhəlləsində kiçiktonnajlı “QAZ” avtomobillərinin yığılması barədə razılıq əldə edilib. Hazırda Samur çayı üzərində yeni körpünün tikintisi uğurla davam edir və tikinti işlərinin 2019-cu ildə başa çatdırılması nəzərdə tutulur.

“Şimal-Cənub” nəqliyyat dəhlizi ilə bağlı məlumat verən nazir Şahin Mustafayev Azərbaycanın bu dəhlizin yaradılmasına böyük töhfə verdiyini, artıq dəhlizin Azərbaycan hissəsində işlərin başa çatdığını, Rəşt-Astara hissəsinin maliyyələşdirilməsində də ölkəmizin iştirak edəcəyini vurğulayıb. Bildirilib ki, hazırda dəhlizin İran hissəsində terminalın yaradılması işləri aparılır.

Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin Azərbaycan və Rusiyanın strateji tərəfdaşlar olduğunu, Azərbaycan və Rusiya prezidentlərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiklərini vurğulayıb. Qeyd olunub ki, iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün böyük potensial var. Maksim Oreşkin yaxın bir neçə ildə Azərbaycan məhsullarının Rusiyaya ixracının bir neçə dəfə artırılacağına əminliyini bildirib və bunun üçün müvafiq imkanların olduğunu qeyd edərək əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə ticarət əlaqələrinin genişləndirilməsinə, gömrük-sərhəd prosedurlarının sadələşdirilməsinə, Azərbaycan-Rusiya sərhədində aksiz-gömrük postunun yaradılmasına, Sumqayıt Texnologiyalar Parkında neft maşınqayırmasının təşkilinə, “Şimal-Cənub” nəqliyyat dəhlizi çərçivəsində Azərbaycan, Rusiya və İran arasındakı əməkdaşlığın genişləndirilməsinə, Azərbaycan məhsullarının Rusiyaya ixracının artırılmasına, kənd təsərrüfatı, vergi, maliyyə, turizm, təhsil və s. sahələrdə əlaqələrin genişlənməsinə dair müzakirələr aparılıb.

Görüş çərçivəsində Azərbaycanın “Şahdağ” Turizm Mərkəzi ilə Rusiyanın “Şimali Qafqaz kurortları” ASC arasında əməkdaşlığa və təcrübə mübadiləsinə dair Saziş, həmçinin Rusiyanın “QAZ” ASC və Azərbaycanın “Azərmaş” ASC arasında kiçiktonnajlı avtomobillərin Azərbaycanda yığılmasına dair uzunmüddətli əməkdaşlıq haqqında Memorandum imzalanıb.

**AZƏRTAC**

# XALQIN SEÇİMİ - TƏRƏQQİ, TƏHLÜKƏSİZLİK, GƏLƏCƏK İNKİŞAF

***Azərbaycanda keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin parlaq qələbəsi bütün Azərbaycan xalqını olduğu kimi, bizi də son dərəcə sevindirmişdir. Əksəriyyət bir daha öz layiqli liderinə səs verməklə ulu öndər Heydər Əliyevin müdrik siyasətinə sadiq olduğunu nümayiş etdirmişdir. Bu, ən doğru seçimdir.***

***Tarixin özü yalnız ulu öndərin müəyyənləşdirdiyi yolun və onun ən layiqli davamçısı Prezident İlham Əliyevin uzaqgörənliyinin, sarsılmaz iradəsinin və siyasi məharətinin Azərbaycanda inkişafın, xoşbəxt gələcəyin təmin edə biləcəyini artıq tam sübuta yetirmişdir. Andiçmə mərasimində cənab İlham Əliyev bununla bağlı demişdir: “Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur”.***

Bu gün ölkəmiz tarixində heç zaman olmadığı qədər inkişaf edib, güclənib, dünya birliyinin bərabərhüquqlu, nüfuzlu üzvünə çevrilib.

Dövlət başçısının inkişaf konsepsiyası təkcə Azərbaycan üçün deyil, ölkəmizlə əməkdaşlıq edən, tərəqqiyə, firavan gələcəyə, öz xalqının əmin-amanlıq, sülh şəraitində yaşamasını təmin etməyə, öz müstəqilliyini möhkəmləndirməyə can atan bütün dövlətlər üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, ölkəmiz bir nümunədir, örnəkdir. Öz nitqində dövlət başçısı qeyd etmişdir: “Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırır, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir”.

Milli istiqlalın möhkəmləndirilməsinin əhəmiyyətli və olduqca təsirli vasitəsi, əlbəttə, dinamik surətdə inkişaf edən iqtisadiyyatdır. Çünki məhz güclü iqtisadi potensial bütün məsələlərin - siyasi, sosial, mədəni-humanitar, təhlükəsizlik və bu kimi digər problemlərin həlli istiqamətində açar rolunu oynayır. Dünya tarixində bunun çoxsaylı sübutlarını görə bilərik.

Diqqət çəkən əsas məqamlardan biri də bundan ibarətdir ki, məhz cənab İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan inanılmaz sürətlə tərəqqi etmişdir və iqtisadi inkişaf səviyyəsinə görə dünyada ən qabaqcıl yerlərdən birinə yüksəlmiş, regionda isə qüdrətli iqtisadi və siyasi güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada az ölkə tapılar ki, planetimizi cənginə alan qlobal iqtisadi böhranları qarşılamaq üçün Azərbaycan qədər davamlı makroiqtisadi sabitliyə malik olsun. Bu, sadəcə olaraq, düzgün iqtisadi siyasətin, vaxtında həyata keçirilən irimiqyaslı islahatların nəticəsində əldə olunmamışdır, bütün bu uğurların arxasında Azərbaycanın lideri, dövlət başçısı İlham Əliyevin titanik əməyi, dərin siyasi biliyi və idarəçilik məharəti dayanır.

Dövlət başçısı Azərbaycanda çoxşaxəli milli iqtisadiyyatın qurulmasına nail olmuşdur. Cənab İlham Əliyevin iqtisadi strategiyasının əsas istiqamətlərindən birini isə özəl sahibkarlığın inkişafı, bu inkişafa hərtərəfli dövlət dəstəyi və qayğısı təşkil edir. Respublikamızın gələcək tərəqqisini təmin edən iqtisadiyyatın şaxələndirilməsində və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində görən cənab Prezident bu sahəyə xüsusi önəm verir. Təsadüfi deyil ki, bu istiqamətdə irimiqyaslı islahatlar, sistemli və kompleks tədbirlər həyata keçirilir.

Bu gün özəl sahibkarlığın, investisiya fəaliyyəti ilə məşğul olan iş adamlarının əldə etdikləri uğurlar Azərbaycanda həyata keçirilən düşünülmüş iqtisadi siyasətin, çağdaş dövrümüzün bütün çağırışlarına cavab verən islahatların müsbət nəticələrinə əsaslanır.

Aprelin 11-i Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermənin ilkin nəticələri elan edildikdən dərhal sonra xalq sevinc içində küçələrə axışdı, öz liderinin qələbəsini böyük ruh yüksəkliyi, coşqu ilə qarşıladı. İnsanların gözlərindəki bu sevinc ədalətin sarsılmazlığının, həqiqətin, vətənpərvərliyin qalib gəlməsinin bir əksi idi. Azərbaycan öz tərəqqisinin yeni mərhələsinə məhz belə qədəm qoymuşdur.

Artıq qeyd etdiyimiz kimi, ölkəmiz tarixi baxımından kifayət qədər qısa müddət ərzində böyük siyasi və iqtisadi uğurlara nail olmuşdur. Sirr deyil ki, bu uğurların təməlində cənab İlham Əliyev tərəfindən siyasi və sosial-iqtisadi prioritetlərin uzaqgörənliklə və düzgün seçilməsi dayanır. Lakin heç bir müdrik siyasət xalq tərəfindən dəstəklənmədiyi halda, uğurla nəticələnə bilməz. Belə ki, Xalq-iqtidar birliyi olmadan hər hansı dərin iqtisadi və siyasi islahatların səmərəli həyata keçirilməsi də mümkünsüzdür. Dövlət başçısı hər zaman insan amilini, Azərbaycan vətəndaşını öz siyasi kursunun mərkəzində görür. Reallaşdırdığı irimiqyaslı islahatların da başlıca məqsədi - ölkəmizin tərəqqisi, hər bir vətəndaşın rahat və firavan yaşamasıdır. Hələ 2003-cü ildə seçkilərə ilk dəfə qatıldığı zaman seçiləcəyi təqdirdə hər bir vətəndaşın prezidenti olacağını, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyata keçirdiyi siyasi kursunu davam etdirəcəyini vəd edən cənab İlham Əliyev hər zaman öz doğma xalqının yanında olduğunu, onun xoşbəxtliyini və firavan gələcəyini təmin edə biləcək yeganə siyasətin alternativsizliyini əldə etdiyi çoxsaylı möhtəşəm uğurlarla dəfələrlə sübut etmişdir: “Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edildi”.

Bir sözlə, xalq hər zaman öz liderinə inanırdı, bu gün də inanır, sabah da inanacaq.

**Nurəddin ZÜLFÜQARLI,**
**Loğman ZÜLFÜQARLI,**
**“Bakı İnşaat Sənaye” ASC-nin təsisçiləri.**

*Müdafiə Nazirliyi:*

# Cəbhəboyu zonada əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistanda baş verən siyasi proseslərlə əlaqədar bəyanat yayıb.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilir: “Ermənistanda hakimiyyəti sona çatmış qanlı və cinayətkar rejimin tərəfdarlarının qoşunların təmas xəttində vəziyyəti gərginləşdirmək məqsədilə müxtəlif təxribatlara cəhd göstərəcəkləri istisna edilmir.

Bununla əlaqədar bildiririk ki, bütün cəbhəboyu zonada əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır, bölmələrimiz atəşkəs rejiminə ciddi riayət edir. Gərginliyin artmasının tərəfdarı deyilik və cəbhə xəttində Müdafiə Nazirliyi tərəfindən heç bir hərbi texnikanın cəmləşməsi həyata keçirilmir.

Bəyan edirik ki, qoşunların təmas xəttində düşmənin vəziyyətin kəskinləşməsinə yönələn istənilən təxribatın qarşısı dərhal, qətiyyətlə və sərt şəkildə alınacaq”.

**AZƏRTAC**

# Rusiyanın iqtisadi inkişaf naziri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







**Azərbaycanda səfərdə olan Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin aprelin 23-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Rusiyalı nazir Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edib.

**AZƏRTAC**

*Koişiro Matsuura:*

# Əminəm ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük uğurlar qazanacaq



**Əminəm ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti mərhələdə daha böyük uğurlar qazanacaq.**

Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuura deyib.

Prezident İlham Əliyevi növbəti dəfə Azərbaycanın dövlət başçısı seçilməsi münasibətilə ürəkdən təbrik edən K.Matsuura bildirib ki, məhz görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu strategiyanın Prezident İlham Əliyev tərəfindən bacarıqla, müasir inkişaf tendensiyaları nəzərə alınmaqla həyata keçirilməsi nəticəsində hazırda Azərbaycan sürətlə tərəqqi edərək regionun lider dövlətinə çevrilib.

Sabiq baş direktor deyib: "Mən şəxsən Azərbaycanı və Azərbaycan xalqını çox sevirəm. Yaxşı bilirəm ki, Azərbaycan tarixi çox mürəkkəb və çətin mərhələlərdən keçib. Tarixboyu, xüsusən də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin ilkin dövrlərində xalqınız çox böyük çətinliklərlə qarşılaşıb. Amma son 25 ilə nəzər salsaq görərik ki, Heydər Əliyevin başlatdığı və sonradan İlham Əliyevin davam etdirdiyi inkişaf yolunda ölkəniz böyük uğurlar qazanıb. Xalqla sıx vəhdətdə keçən bu illər ərzində onlar Azərbaycana böyük nailiyyətlər qazandırıblar. Güclü rəhbər və uğurla nəticələnən addımlar nəticəsində Azərbaycan qısa vaxtda bütün dünyada öz sözünü deyən ölkələrdən birinə çevrilib. Eyni zamanda, Azərbaycan zəngin təbii sərvətlərə sahib olduğu üçün çox güclü bir iqtisadiyyat qurmağa nail olub. Ölkəniz və xalqınız üçün həmişə faydalı addımlar atılıb.

Prezident seçkilərindəki qələbəsi ilə əlaqədar dövlət başçısı İlham Əliyevi təbrik edən Koişiro Matsuura deyib: "Bilirəm ki, xalq tərəfindən böyük dəstəyə sahib olduğu üçün o, səslərin 86 faizdən çoxunu toplayaraq qalib gəlib. Mən inanıram ki, bu dəstək həmişə belə davam edəcək və cənab İlham Əliyev buna layiqdir".

Ölkə rəhbərliyinin dərindən düşünülmüş siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının sürətlə böyüdüyünü qeyd edən K.Matsuura bildirib ki, 2000-ci ildən bəri Azərbaycana etdiyi hər səfər zamanı ölkəmizin bütün sahələrdə inkişafının şahidi olub: "İlham Əliyev hakimiyyətə gəldikdən sonra bu inkişaf daha da sürətlənib və hazırda xalqınızın həyat səviyyəsi çox yüksəkdir. Prezident İlham Əliyev çox bacarıqlı, ölkə iqtisadiyyatının inkişafı üçün düşünülmüş addımlar atan, xalqı üçün faydalı qərarlar qəbul edən bir dövlət başçısıdır. Əminəm ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti mərhələdə daha böyük uğurlara imza atacaq".

**AZƏRTAC**

*Pyer Alen Rafan:*

# Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə keçib

**Aprelin 11-də Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə keçib.**

**AZƏRTAC xəbər verir ki, bu fikri Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafan bildirib.**

Pyer Alen Rafan qeyd edib ki, Milli Assambleyadan beynəlxalq əlaqələrlə məşğul olan iki nəfər Azərbaycanda prezident seçkilərini müşahidə edib. Seçkilər şəffaf keçib. "Mən öz adımdan və parlamentlərarası dostluq qrupunun bütün üzvlərinin imzası ilə Azərbaycan Prezidentinə təbrik məktubu göndərmişəm. May ayında Bakıya səfər etməyi planlaşdırmışıq. Bundan başqa, Milli Assambleyada Azərbaycan Respublikasının 100 illiyinə həsr olunmuş kollokviumun təşkili ilə bağlı hazırlıqlar aparırıq. Kollokviumda Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dəyərləri, bir çox Qərb ölkələrindən, eləcə də Fransadan da əvvəl qadınlara səsvermə hüququ verilməsi məsələləri diqqətə çatdırılacaq", - deyə o bildirib.

Parlamentlərarası münasibətlərin perspektivlərindən danışan Pyer Alen Rafan deyib ki, dostluq qruplarının illik görüşlərinə hazırlıq işləri aparılır. Əvvəlcə Fransa parlamentariləri Bakıya gedəcək və sonra onlar Parisdə azərbaycanlı həmkarlarını qəbul edəcəklər. Görüşlərdə əlaqələrin hazırkı vəziyyəti və gələcək planlar müzakirə olunacaq.

Parlamentlərarası dostluq qrupunun rəhbəri qeyd edib ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Fransada mədəniyyət sahəsində çoxsaylı mühüm layihələr həyata keçirilib. Azərbaycan mədəniyyətinin tanıdılması istiqamətində çox işlər görülüb. Biz bu işlərin davam etdirilməsini, eləcə də mədəniyyət, gənclər və idman sahələrində birgə layihələrin həyata keçirilməsini nəzərdə tuturuq.

Fransız parlamentari vurğulayıb ki, ölkələrimizi birləşdirən bir çox amillər var: Birinci respublika, general De Qol, Bakıda fəaliyyət göstərən və Strasburq Universiteti ilə sıx əlaqələri olan Azərbaycan-Fransız Universiteti, Bakı Fransız Liseyi və s. Bütün bunlar bizi frankofoniya sahəsində də əməkdaşlığı genişləndirməyə ruhlandırır. Fransa, eləcə də Azərbaycan frankofoniyaya böyük əhəmiyyət verir. Azərbaycanda fransız dilinə böyük maraq var. Bu sahələrdə əməkdaşlığı genişləndirmək prioritetimizdir.

Pyer Alen Rafan bildirib ki, Azərbaycanın Fransanın bütün əyalətlərində tanıdılması istiqamətində fəaliyyətimizi davam etdirməliyik. Xüsusilə də Fransada bəzi KİV-lərin Azərbaycanla bağlı yaydığı qeyri-obyektiv məlumatların yanlış olduğunu göstərmək üçün görüləsi işlər var.

Bəzi fransız kommunaların erməni separatçıları ilə xartiya imzalamasına, eləcə də separatçı nümayəndələrin Fransaya səfərlərinə münasibət bildirən dostluq qrupunun rəhbəri deyib ki, bunların heç biri rəsmi deyil. Rəsmi olmadığı üçün də belə qruplar xartiya sözündən istifadə edərək söz oyunu oynayırlar. Bu, Fransada Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla həllinə mane olmaq və vəziyyəti daha da çətinləşdirmək istəyən bəzi şəxslərin işidir. Fransanın Azərbaycanla bağlı mövqeyi məlumdur. Dağlıq Qarabağ münaqişəsi uzun zamanın münaqişəsidir və çox mürəkkəbdir. Bu haqda Azərbaycanın Fransadakı səfiri ilə, eləcə də Bakıya səfərimiz çərçivəsində görüşlərimiz zamanı danışıqlar olub. Hamı münaqişənin diplomatik yolla həllini istəyir. Fransa münaqişənin həlli həvalə edilmiş Minsk qrupunun üç həmsədrindən biridir. Fransanın mövqeyi həmişə aydın olub: Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək və BMT qətnamələrinə riayət etmək. BMT-nin qəbul etdiyi 4 qətnamə Azərbaycanın xeyrinədir. Parlamentlərarası dostluq qrupunun üzvləri kimi prefekturalarla əlaqə saxlamışıq. Prefekturalar merləri toplayaraq belə qeyri-rəsmi imzaları qadağan etməlidir və bu cür hallara son qoyulmalıdır. Düzdür, bu, elə də asan iş deyil, çünki Fransada 36 min komuna var, ancaq biz buna nail olacağıq.

Pyer Alen Rafan bildirib ki, bəzən hətta Milli Assambleyada da yanlış fikirlər səsləndirilir. Hər bir şəxs şəxsiyyətini təsdiq edən sənəd təqdim etməklə Milli Assambleyaya daxil ola bilər. Bəziləri də belə daxil olur və sonra çıxaraq çəkdikləri şəkilləri paylaşır və yanlış fikirlər yayırlar. Bu, düzgün hərəkət deyil. Bunlar fərdi şəxslərdir və vəziyyəti qızışdırmaqla məşğuldurlar. Dostluq qrupunun rəhbəri kimi mən Milli Assambleyanın prezidenti, eləcə də xarici işlər naziri ilə görüşəcəyəm. Dağlıq Qarabağ münaqişəsi ciddi münaqişədir. Biz bu münaqişənin diplomatik yolla həllinə töhfə verməli və BMT-nin qətnamələrinə riayət etməliyik. Ancaq biz mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığımızı daha da genişləndirəcək və Azərbaycanın imicinə xələl gətirmək istəyən şəxslərin fəaliyyətlərinə mane olacağıq.

**AZƏRTAC**

# Bakıda "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" Forumu keçirilir





**Aprelin 23-də Bakıda SOCAR-ın III Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" Forumu öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov tədbirin ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunduğunu deyib.

O bildirib ki, Bakı Ali Neft Məktəbinin və Böyük Britaniyanın "Confidence Capital Ltd" şirkətinin birgə təşkilatçılığı ilə keçirilən forumda 30 ölkədən 230-dək iştirakçı və məruzəçi iştirak edir. Bu göstərici Azərbaycanın adının qlobal neft sektorunda önəmli mövqedə olmasından xəbər verir: "Forumun məqsədi Xəzər və Mərkəzi Asiya regionunda karbohidrogen ehtiyatlarının emalı, satışı və ixracı məsələləri üzrə ən son tendensiyalar və inkişaf perspektivlərinin təhlil edilməsidir".

E.Qasımov əlavə edib ki, keçən illə müqayisədə bu il forumda iştirak edən ölkələrin sayında artım müşahidə olunub. Ümumilikdə, bu il foruma Azərbaycandan 72 nəfər, Rusiyadan 49 nəfər, Qazaxıstandan 32 nəfər, Böyük Britaniya, Almaniya, Fransa, İsveçrə, İtaliya, İspaniya, Avstriya, Polşa və digər Avropa ölkələrindən 53 nəfər, Birləşmiş Ərəb Əmirlikləri, İran, Türkmənistan, Özbəkistan və digər Asiya ölkələrindən 18 nəfər, Kolumbiya və Sinqapurdan isə 2 nəfər neft-qaz sektoru üzrə müəssisələrin rəhbər nümayəndələri qatılıb.

O, forumun keçirilməsinin çox gözəl bir vaxta təsadüf etdiyini vurğulayaraq, bir neçə gün əvvəl ölkə başçısı İlham Əliyevin seçkilərdə çox böyük səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildiyini qeyd edib, forum iştirakçıları adından bütün Azərbaycan xalqını təbrik edərək ölkəmizin daim çiçəklənməsini və inkişafını arzulayıb.

E.Qasımov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu neft strategiyasının bütün dünyaya təbliğ olunmasında forumun səmərəli platforma olduğunu bildirib.

Sonra forumun iştirakçıları ulu öndər Heydər Əliyevin həyatından bəhs edən qısa filmi izləyərək onun əziz xatirəsini yad ediblər.

Azərbaycan energetika naziri Pərviz Şahbazov "Azəri-Çıraq-Günəşli" (AÇG), "Şahdəniz", Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri layihələrinin ölkəmizi dünyaya neft diyarı kimi tanıtdığını deyib. Bildirib ki, hazırda Azərbaycanın təşəbbüsü ilə dünyanın ən böyük qaz boru kəmərləri zənciri olan Cənub Qaz Dəhlizi reallaşdırılır. Bu dəhliz ilə Azərbaycan təbii qazı cari ildə Türkiyəyə, 2020-ci ildə isə Avropaya çatdırılacaq.

Nazir qeyd edib ki, bu vaxtadək Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 454 milyon ton xam neft və 144 milyard kubmetr təbii qaz hasil olunub. Azərbaycan indiyədək "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsindən 130 milyard 551 milyon ABŞ dolları gəlir əldə edib.

Milli Məclis sədrinin müavini Valeh Ələsgərov isə dövlət başçısı İlham Əliyevin bir çox sahələr kimi ölkə iqtisadiyyatının dayağı olan energetika sektorunda da qarşıdakı dövr üzrə mühüm vəzifələr müəyyənləşdirdiyini diqqətə çatdırıb.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə qeyd edib ki, Prezident İlham Əliyevin strateji təlimatlarını rəhbər tutaraq Dövlət Neft Şirkəti bu gün bir çox ölkələrdə fəaliyyət göstərən, müxtəlif sahələrdə böyük layihələr həyata keçirən transmilli şirkətə çevrilib. SOCAR-ın Beynəlxalq Forumu xarici tərəfdaşlarla əlaqələrin daim diqqətdə saxlanılması və bununla beynəlxalq əməkdaşlıq bağlarının güclənməsi üçün zəruri şərait yaradır.

X.Yusifzadə bildirib ki, Azərbaycan indiyədək "Azəri-Çıraq-Günəşli" yataqlarından 256 milyon ton mənfəət nefti əldə edib: "Artıq 19 ildir ki, "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları mənfəət neftindən gəlir əldə edirlər. 2018-ci il aprelin 1-dək dünya bazarında Azərbaycanın payına düşən 256 milyon ton mənfəət nefti satılıb. Bu da dünya bazarında realizə olunmuş bütün mənfəət neftinin 56,6 faizini təşkil edir".

SOCAR-ın rəsmisi deyib ki, bu vaxtadək AÇG layihəsinə 43 milyard dollar xərclənib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə şirkətin ötən 25 il ərzində ölkəmizdəki fəaliyyətindən və həyata keçirdiyi irimiqyaslı layihələrdən danışıb. Bildirib ki, BP Azərbaycan, Gürcüstan və Türkiyə regionunda Xəzərdəki neft-qaz yataqlarının istismarına əsaslanan mühüm və çoxşaxəli biznes əməliyyatları həyata keçirir. Bunlar nəhəng ixrac sistemi vasitəsilə birbaşa yerli və beynəlxalq bazarlara birləşdirilib.

"İndiyədək Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından 89 milyard kubmetrdən çox təbii qaz və 176 milyon barrel kondensat hasil edilib. İşlənmənin əvvəlindən bu vaxtadək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan isə 3,3 milyard barrel neft hasil olunub. Azərbaycan AÇG və "Şahdəniz"in işlənməsindən indiyədək 132 milyard dollar gəlir əldə edib", - deyə o əlavə edib.

BP-nin rəsmisi bildirib ki, 2013-cü ildən bu zamana qədər 116 nəfər azərbaycanlı kadr xarici bazarlardan "BP Azerbaijan"a cəlb olunub. 2018-ci ildə "BP Azerbaijan" şirkəti kadr milliləşdirilməsini 90 faizə çatdıracaq.

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov və başqaları çıxış edərək forumun əhəmiyyətindən danışıb, onun işinə uğurlar arzulayıblar.

Forum dünyanın 30 ölkəsindən olan 40-a yaxın məruzəçinin çıxışı ətrafında müəyyən mövzuları əhatə edəcək. Forumun ilk günündə dünya neft-qaz bazarı, Xəzər və Mərkəzi Asiya bazarı, nəqliyyat infrastrukturuna həsr olunub. İkinci günü neft emalı, neft və neft-kimya məhsullarının ticarəti, üçüncü günü isə neft-kimya bazarı, neftayırma zavodları və neft-kimya üçün texnologiyalara həsr edilib, sonuncu günü isə müxtəlif ölkələrdən olan iştirakçılar üçün Heydər Əliyev adına Neft Emalı Zavodu və Sumqayıtda yerləşən neft-kimya kompleksinin müəssisələrinə texniki səfərlərin təşkil olunması nəzərdə tutulub.

Tədbirdə iştirak edən müəssisələr arasında dövlət strukturları, neft-qaz şirkətləri (treyderlər, NEZ və neftçıxarma), neft-kimya müəssisələri, nəqliyyat şirkətləri (limanlar, terminallar, boru kəmərləri və ekspeditorlar), banklar, hüquq və konsaltinq şirkətləri və avadanlıq istehsalçıları, yeni texnologiyalar hazırlayan müəssisələr və universitetlər var.

Forumda Azərbaycanın hökumət nümayəndələri ilə yanaşı SOCAR və BP rəsmiləri, Qazaxıstan, Qırğızıstan, İran, Rusiya, Türkiyə və digər ölkələrin enerji nazirlikləri, eləcə də transmilli neft-qaz şirkətlərinin nümayəndələri, analitiklər, bank strukturlarının nümayəndələri iştirak edir.

**AZƏRTAC**

# "Elektron kənd təsərrüfatı"

*ADAU-da bununla bağlı tədbir keçirilib*





**Ölkədə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılmasının mövcud vəziyyəti, qarşıda duran vəzifələr, layihənin icrasında digər qurumlarla yanaşı, Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) potensial imkanlarından istifadə ilə bağlı təhsil müəssisəsində geniş tədbir keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri İlham Bayramovun, Elm və Təhsil şöbəsinin müdiri Namiq Məmmədovun, universitetin müvafiq sahə üzrə müəllimləri, bakalavr və magistrant tələbələri, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun rəhbərlərinin iştirak ediyi tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qeyd edib ki, universitetin maddi-texniki bazasının müasirləşdirilməsi tədbirləri çərçivəsində informasiya texnologiyaları avadanlıqları, proqram və sürətli internetlə təminat, müvafiq ixtisaslar, o cümlədən yerquruluşu, torpaq və şəhər kadastrı, informasiya texnologiyaları ixtisasları üzrə mütəxəssis hazırlığının aparılması universitetdə bu sahədə böyük imkanların olduğunu deməyə əsas verir. Xüsusilə yeqruluşu və informasiya texnologiyaları kafedralarının müasir avadanlıqlarla və proqramlarla təminatı, elmi-pedaqoji kadrların mövcudluğu, beynəlxalq səviyyəli layihələrin icrası qeyd olunan sahə üzrə kifayət qədər təcrübənin formalaşmasına səbəb olub. Bütün bu imkanlardan səmərəli istifadə etməklə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin komponentlərinin uğurla icrasına dəstək universitetin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri İlham Bayramov tədbirdə çıxış edərək "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması prioritetləri, komponentləri, Bakıda və respublikanın rayonlarında yeni inşa edilən və ən müasir avadanlıqlarla təchiz olunan inzibati-laboratoriya binaları, modern maddi-texniki baza, zəruri informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilən İnformasiya texnologiyaları infrastrukturu, "İnteqrasiya olunan nəzarət sisteminin" (İACS) prinsiplərinə əsaslanan "Subsidiya və siyasətə dair informasiya sistemi", aeroşəkillər və peyk təsvirləri əsasında ölkə ərazisinin yeni ortofoto xəritələrinin tərtib edilməsi, informasiya sistemlərinin tətbiqi və məlumatların idarə olunması üçün zəruri olan informasiya və kommunikasiya texnologiyaları infrastrukturu üzrə texniki tələblər və digər məsələlər barədə ətraflı söhbət açıb.

Sonra "Elektron kənd təsərrüfatı" sisteminin məlumat bazasının formalaşdırılması üçün tələblər, bu istiqamətdə universitetlə əməkdaşlıq imkanları, o cümlədən müvafiq sahə üzrə mütəxəssislərin, bakalavrların, magistrantların, doktorantların prosesə cəlb edilməsi və onlara təlimlərin keçirilməsi məsələləri müzakirə olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Tarixi həqiqətlər erməniliyi ifşa edir

*Günün günorta çağı iki ziyalının bir-biri ilə öcəşdiyini eşidəndə hiddətimdən tərlədim: **"İrəvan" yazaq, yoxsa "Yerevan"**. Biri dirənib ki, "...yazılma qaydası Yerevandır və bizim mətbuatımızda bu şəkildə yazmaq lazımdır", "...indiki halda Ermənistanın paytaxtı Yerevandır və onu İrəvan yazmağın heç bir mənası yoxdur".*

O biri də and-aman edir ki, "İrəvan xanlığı mövcud olub və şəhər də bu xanlığın adını daşıyır". O tarixi məkana "Yerevan" qondarma olmasını inandırmaqdan ötəri deyir: "...1918-ci ildə Azərbaycan Cümhuriyyəti digər bütün ərazilərə (Anadolu, Naxçıvan və s.) iddialarından əl çəkmələri şərtilə İrəvanı (İrəvan xanlığını) ermənilərə güzəştə getmişdi. Bununla bağlı F.X.Xoyski o vaxtkı xarici işlər naziri M.H.Hacınskiyə ünvanladığı məktubda yazır: "Ermənilər ultimatumu qəbul edirlər və müharibəyə son qoyurlar. Biz İrəvanı güzəştə getdik".

Əlbəttə, biz sülh, əmin-amanlıq xatirinə, xalqı rus-erməni quzğunlarının hücumlarından, fəlakətdən xilas etmək naminə İrəvanı (İrəvan xanlığını) güzəşt etdik.

Şükürlər olsun, bu gün Müstəqil Azərbaycan regionda inkişaf etmiş qüdrətli ölkədir. Onun güclü ordusu var. Belə bir şəraitdə olmazmı ki, xalqımızın təəssübkeş insanları - fikir adamları Azərbaycanın bütövlüyü, cənnətməkan torpaqlarından yadelliləri qovub çıxarmaq yolları haqqında düşünsünlər. Tarix öz sözünü deyəcəkdir: Bir zaman gələcəkdir ki, İrəvan xanlığı ərazisində dinc əhalidən başqa ermənilik xəstəliyinə yoluxmuş bir nəfər də qalmayacaqdır.

Bu tarixi prosesi yaxınlaşdırmaq uğrunda mübarizə aparmaq hər bir vətəndaşın şərəf və vicdan borcu olmalıdır.

XIX əsrin əvvəllərindən qaragüruh rus şovinistlərinə sığınmış mürtəce ermənilər quldur dəstələri Türkiyədə, İranda və Cənubi Qafqazda dinc müsəlman xalqlarına qənim kəsilmiş, onların yurd-yuvasını dağıtmış, talamış, soyqırım siyasəti yeritmişlər.

Tarixi dönəmlərdə ermənilik siyasəti yeridən din xadimləri və millətçi ziyalılar dinc erməni əhalisini fəlakətə sürükləmiş, onların yerli xalqlarla əmin-amanlıq şəraitində yaşamasına imkan verməmişlər. Bütün dünyada pərakəndə halda yaşayan ermənilər arasında mürtəce fikirli millətçi qaragüruh öz ictimai fəaliyyətləri ilə bu xalqa bədnamçılıq qazandırmışdır. Qədimdən bəri tanınmış dünya xadimlərinin ermənilər satqın, oğru, etibarsız, xain adlandırmaları təsadüfi deyildir.

Mənfur xisləti erməni millətçilərinin tarixi keçmişini, fitnəkar əməllərini nəzərə alan Əlibəy Hüseynzadə 1906-cı ildə "Həyat" qəzetində dərc etdirdiyi "Milliyyət və insaniyyət" məqaləsində oxuculara yazırdı: "Amandır, bu canilərdən, iblislərdən özünüzü qoruyun!.."

Qədim mətnlər və klassik mənbələr ermənilərin oğurluğunu, xəyanətini və saxtakarlığını dünya ictimaiyyəti qarşısında ifşa etməyə imkan verir. 2018-ci il aprelin 20-də Bakıda Müəllif Hüquqları Agentliyinin (MHA) təşkilatçılığı ilə keçirilən konfransda səsləndiyi kimi hay-ermənilər 1918-ci ildə Cümhuriyyət tərəfindən hədiyyə verildiyi torpaqlarda - İrəvan xanlığı və Zəngəzur qəzası ərazilərində erməni dövləti yaratmalarına baxmayaraq riyakarlığı dolu təxribat xarakterli məlumat yaymaqla Naxçıvan torpaqlarına ərazi iddialarından əl çəkmirlər.

Görkəmli tədqiqatçı alim Kamran İmanov öz geniş məruzəsində dediyi kimi, hay-ermənilər "Ərazi iddiaları ilə yanaşı, ermənilər tərəfindən əqli mülkiyyətimizin oğurlanmasının", "Azərbaycan mədəni ənənələrini özününküləşdirməyin erməni ənənəsinə" çevrilməsi üsulları artıq çoxdan sirr deyil. Rəvayətlərimizi mənimsəmək, bayatılarımızı oğurlamaq, dastanlarımızı özününküləşdirmək üçün türk adlarının və coğrafi adların erməniləşdirilməsi, atalar sözləri və məsəllərimizin erməniləşdirilməsi üçün erməni dilinə, sonra isə digər dillərə tərcümə edilməsi, musiqimizi haylaşdırmaq üçün not şəklinə çevirib nəşr etmək, mətbəximizi, xalçalarımızı özününküləşdirmək ermənilərin gündəlik işinə çevrilib".

Konfransda çıxış edənlərin işğal olunmuş ərazilərimizdə memarlıq abidələrimizin məhv edilməsi, "Armeniya" coğrafi adının etimologiyası, erməni əlifbasının Aran mənşəyi, hayların etnik xüsusiyyətləri, ermənilərin Urartu və Armina dövlətinin mirasına iddiaları və s. məsələlərdən söhbət açması, əsassız iddiaların, saxtakarlığın, uydurmaların təkzibedilməz faktlarla ifşa edilməsi tədqiqatçı alimlərin həmrəyliyini və dünya əfkari-ümumiyyəsi qarşısında erməniliyi ifşa etmək səylərini göstərir.

Xarici ölkə alimləri də ermənilərin ümumdünya saxtakarlığını ifşa edən yeni, təkzibedilməz dəlillərlə çıxış edirlər.

Rus araşdırmaçı jurnalistləri müəyyən etmişlər ki, ermənilər dövlət bayrağını Kolumbiya bayrağının eynisi əsasında formalaşdırıblar.

Müasir erməni əlifbası da oğurluqdur.

Dünya şöhrətli həbəş politoloqu, professor Tekola Xaqos Gürcüstanın "Literaturnaya qazeta" adlı ədəbiyyat qəzetinə müsahibəsində ermənilərin istifadə etdikləri əlifbanın qədim həbəş əlifbasının eyni olmasını söyləmişdir.

2010-cu ildə İstanbul Universitetinin kitabxanasında erməni əlifbası ilə yazılmış bir kitaba təsadüf edən Tekola Xaqos yazır: "...Çaş-baş halda mənim üçün anlaşılmaz dildə tərtib edilmiş bu kitabı vərəqləyirdim və mənim gözlərim önündə yer üzündə ən qədim abidələrdən biri olan həbəş əlifbasının qədim nümunələri canlandı. Bu, bizim əcdadlarımızın min illərlə əvvəl yazdıqları hərflərimizin surəti idi. Təəccübdən az qala bağırmaq istədim, bu hərfi işarələri dostuma - Əddis-Əbəbə Universitetindən olan tarixçiyə göstərdim. O gülümsündü və mənə dedi: — "Məgər, sən doğrudan da bilmirdin? Bizim hərflər ilə yazmağı dayandıran kimi, ermənilər bütün dünyaya onu erməni əlifbası kimi təqdim etdilər. Şəxsən mən universitetdə bu mövzuya bir neçə məruzə həsr etdim. Dünya elmi isə bilir ki, bu həbəş əlifbasıdır, lakin budur, ermənilər onu özlərininki kimi təbliğ edirlər..."

Göründüyü kimi, erməni əlifbası oğurluqdur. Onun ermənilər tərəfindən mənimsənilməsi haqqında müxtəlif mülahizələr söylənsə də nəticə birdir: ermənilərin əlifbası olmamışdır.

Professor Əjdər Tağıoğlunun tədqiqatına görə, Mesrop Maşdos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir. Azərbaycanlı tədqiqatçı erməni dilçi alimi R.Açaryanın və Nikitin Eminin elmi qənaətlərinə əsasən gətirdiyi tarixi maddi sübutlar əsasında "erməni yazısı"nın üzü çıxarılmış "Avesta yazısının variantı" olması fikrinə gəlir. Tədqiqatçı alimin araşdırma və müşahidələrinə görə erməni vandalları "erməni yazısının mənşəyini gizlətmək üçün Atəşgahların kitabələrində, Van gölü ətrafında müqəddəs "Avesta" daş yazılarının mətnlərini silib yox etmişlər.

Görkəmli alim Buludxan Xəlilov "erməni əlifbası"na münasibətini bildirərkən demişdir: "Ola bilməz ki, qaraçı xislətində olan bir millət əlifba yaratsın. Ermənilərin həyatı, fəaliyyəti qaraçı simasında olub. Ən qədim yazı daş üzərində həkk olunmuş yazıdır. Əgər hansısa xalqın daş üzərində həkk olunmuş yazısı varsa, o, xalqın əlifbası da, yazısı da qədimdir. İkincisi, gil üzərində həkk olunmuş yazılı abidələrdir: ("Gilqamış" və ya "Bilqamış" dastanı). Növbəti dövrdə dəri və nəhayət kağız üzərində həkk olunmuş yazılar meydana çıxdı. Bizim qədim Alban yazılı abidələrimiz və Orxan-Yenisey abidələrimiz var. Ermənilərin daş üzərində yazılmış hansı yazılı abidəsi var?.. Ermənilərin əlifbası oğurluqdur, onların himayədarları və özlərinin hiyləgər siyasəti bizim etnoqrafları, tarixçiləri hərəkətə gətirməyib. İndi hərəkətə gətirmək və bunları sübut etmək lazımdır".

Filologiya elmləri doktoru İlhami Cəfərsoyun elmi mülahizələrinə görə ermənilər IV əsrə qədər yunan və pəhləvi əlifbalarından istifadə etmişlər. Mesrop Maşdos Mərakeşdə Efiopiya əlifbasını mənimsədikdən sonra onun əsasında alban İber erməni əlifbalarını tərtib etmişdir. Əslən Aran nəslindən olan Mesrop Maşdos yalnız siyasi səbəblərə görə yox, etnik səbəblərə görə hər üç əlifbanı Efiopiya əlifbası əsasında tərtib etmişdir. Mesrop misirli deməkdir. Yəhudilər Aran sözünü misrim formasında öz dillərinə tərcümə etmiş, nəticədə Mesrop və Misir adları yaranmışdır".

İlhami Cəfərsoy yazır: "Qafqazın xristian əlifbasının Efiopiya əlifbaları əsasında tərtib edilməsinin əsas iki səbəbi var idi. Birinci səbəb Efiopiyanın elitar nəsillərinin çoxunun türk əsilli olması idi. Onlar ön Asiyadan Misirə köçmüş, oradan Nibiyaya və Efiopiyaya qovulmuşlar".

Mübahisə doğuran mülahizələrdən biri də erməni əlifbasının V əsrdə suriyalı din xadimi Danil tərəfindən tərtib edilməsi məsələsidir.

Hətta erməni əlifbasında istifadə edilən hərflərin Zərdüşt yazılarından götürülməsi fikri də söylənir.

Dərin inamla demək olar ki, tədqiqatçı alimlərin birgə səyi nəticəsində tarixin toz basmış kitabələri dilə gələcək, həqiqət qartımış ermənilik uydurmaları və böhtanlarına son qoyacaqdır.

Fikir karvanı Olimpin əlçatmaz zirvələrinə doğru cığır açmaqdadır.

**T.ƏHMƏDOV.**

# SOYSUZ ERMƏNİLƏRİN SOYQIRIMI SİYASƏTİ

Tarixi mənbələrə əsasən Rusiya dövlət kimi mövcud olduğu vaxtdan yaxın dövrədək Türklərə qarşı nifrətə köklənmişdi. Birinci Pyotrun vəsiyyətnaməsində belə bir cümlə var: **"Nəzərdə tutduğumuz böyük Rusiyanı reallaşdırmaq üçün Şərqin ürəyi olan Konstantinopola sahib olmalıyıq".**

Yenə də tarixi faktlara istinadən erməni amili Çar Rusiyasının Şərq siyasətində istifadə edə biləcəyi siyasi vasitələrin ən önəmlisi olmuşdur. Şərq müsəlman ölkələri arasında Osmanlı əsas yer tutduğuna və aparıcı qüvvə olduğuna görə Çar Rusiyası bütün gücünü ona qarşı istiqamətləndirməyi vacib hesab edirdi. Aparılan bütün əməliyyatların siyasi mahiyyətində də daxildən parçalama əsas məqsəd olaraq qarşıya qoyulmuşdu. Tarixçi alim V.Quko Krayjinin 1926-cı ildə nəşr edilmiş **"Böyük Sovet Ensiklopediyası"**nda erməni məsələsi ilə bağlı yazdığı məqalənin üzərində ümumiləşdirmə aparıb, onun əsas qayəsini ehtiva edən iki istiqaməti aşağıdakı kimi göstərmək olar:

**I.** Erməni məsələsi Şərq məsələsinin bir hissəsidir və ona (daxili və xarici olmaqla) iki istiqamətdən yanaşılmalıdır. Böyük dövlətlərin Osmanlını daha asanlıqla işğalına görə onun mərkəzdənqaçma qüvvələrini gücləndirmək, beləliklə də ölkənin zəifləməsinə şərait yaratmaq.

**II.** Ermənilər öz burjaziyalarının rəhbərliyi altında milli müqəddəratlarının müstəqil həlli üçün iqtisadi-siyasi amillərin əldə edilməsi uğrunda mübarizəyə cəlb edilmişdir ki, bu plan da ölkənin ərazi bütövlüyünün parçalanmasını təmin etməli idi.

Aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olur ki, Osmanlı dövlətinin daxilində çaxnaşma və üsyanların ideoloji təşkilatçıları sırasında xüsusi rolu olan, 1864-1876-cı illərdə Rusiyanın Osmanlıdakı səfiri, general Nikolay Pavloviç İqnatyev olmuşdur. Həmin səfirin əsas fəaliyyət istiqaməti yerli şəraitə uyğun olaraq erməni separatçılarının təşkilat və komitələrinin yaradılması, onların silahlandırılması və idarə edilməsinin nəzəri sxemini, həm də işlək mexanizmini hazırlamaq olmuşdur. Məhz Türkiyə ərazisində erməni muxtariyyəti məsələsi də İqnatyevin icraçılığı ilə Çar Rusiyasının planı olmuşdur. Bu qənaət üçün bir məsələ xüsusi vurğulanmalıdır. Belə ki, vaxtilə ruslar İstanbula girəndə indiki "Yaşıl-Köy", həmin dövrdə isə "Ayastefans" adlı məhəllədə imzalanan müqavilədə rus hökumətini elə həmin İqnatyev təmsil edirdi və müqavilənin 16-cı bəndində **"Türkiyə ərazisində erməni muxtariyyəti"** mövzusunu da O, təyin etmişdir. Başqa sözlə, sonradan qondarılan "böyük Ermənistan"ın bünövrəsi həmin müqavilədən qaynaqlanmışdır və çox təəssüf ki, bu muxtariyyət Azərbaycanın qərb ərazisindəki torpaqlarında reallaşdırıldı...

Burada bir məsələ də qeyd edilməlidir ki, rusların bu planı ermənilərin arzu və maraqlarını təmin edirdi. Məs: 1912-ci ildə ABŞ-da çap olunan "Hayrenek" jurnalında Şahan Natan adlı daşnaq və terrorçunun "Türklər və biz" əsərində belə bir məqam var. **"Ermənінin türkdən başqa düşməni yoxdur. Türkə qarşı intiqamçı olmağı erməniyə Tanrı özü öyrədib".** Bu ifadədən aydın görünür ki, müttəfiq dövlətlərin və rusların işğalçı siyasəti ermənilər üçün nə dərəcədə arzuedilən bir hadisə olmuşdur. Çünki bu ifadə yanız bir erməni nümayəndəsinə, qrupuna məxsus ifadə deyil, bütövlükdə bir etnik toplumun yoluxduğu və daşıdığı kütləvi psixoz ideologiyanın əsasıdır. Erməni təşkilatları və komitələri istənilən şəraitdə öz məqsədlərini həyata keçirmək üçün hər cür vasitədən istifadə etməyə hazır idilər və müvafiq əlverişli məqamı gözləyirdilər. Necə ki, Loşe Nalbandyan yazır: **"Erməni komitələrinin qarşıya qoyduqları hədəflərə çatmaq üçün üsyan başlatmanın ən uyğun zamanı Osmanlı dövlətinin müharibə halında olduğu zaman idi"** (Loşe Nalbandyan. Amerikan Rovalution ary Movemt". Unverstitiy of Coliforniya Pres 1963. s. 110-111).

Osmanlı dövlətinin I Dünya Müharibəsində olduğu zaman daxildə təxribat fəaliyyəti törədəcək erməni təşkilat və komitələrindən şübhələnməsi tam təbii idi. Ona görə də dövlət 1914-cü ildə Ərzurumda bir iclas təşkil etdi. Həmin iclasda daşnaklar müharibə şəraitində bir vətəndaş olaraq öz vəzifələrini yerinə yetirəcəyinə və ordu sıralarında sədaqətlə çalışacaqlarına söz vermişdilər. Amma bu iclasın görünən tərəfi oldu. Görünməyən tərəfi isə daşnakların bir araya gəlməsi və hələ bir neçə ay əvvəl özlərinin keçirdikləri bir gizli iclasın nəticələrini paylaşmaq idi. Belə ki, onlar keçirdikləri gizli iclasda Osmanlı dövlətinə qarşı aparılan xarici planlardan istifadə etməyin ən əlverişli tarixi şəraitin olduğu və bu fürsətin əldən verilməməsi haqqında müzakirələr aparmışdılar. Bu hadisənin geniş şərhini **"Ermeni komitelerinin amal ve ihtilah hareketi".** (İstanbul, 1333 (1917), s.144-146) adlı mənbə vermişdir. Bu gizli iclas isə Rusiya ordusunda fəaliyyətdə olan yüksək rütbəli ermənilərin planlı təşkilatçılığı ilə baş tutmuşdu. Həmin iclasda Eçmiədzin katolikosu başda olmaqla erməni heyəti ilə Qafqazın ümumi valisi V.Daşkov arasında əldə edilən belə bir razılıq varı idı: **"Osmanlı dövlətində erməni maraqlarına müvafiq islahatlar icra edilməsi müqabilində Osmanlı və Rusiya ermənilərinin Rusiyanı dəstəkləməsi qeyd-şərtsiz olacaqdır. Bu razılaşmadan bir müddət sonra katolikos Tiflisdə çarın xüsusi qəbulunda olmuş və bildirmişdi ki, "Anadoluda ermənilərin türk hakimiyyəti altından çıxarılıb avtonom bir Ermənistan vilayəti yaradılması ilə bu vilayətin Rusiyanın himayəsi altında olması təmin edilərsə, ermənilər Rusiyanın istənilən sifarişini icra etməyə hazırdırlar"** (Tehal kovchian Gr. "Le Livre Rouqe". Paris. 1919. s. 12). Məhz ermənilərdən istifadə edərək Şərqi Anadolunu işğal etmək Rusiyanın əsas planlarından biri idi. Beləliklə, Rusiyanın Osmanlı dövlətinə qarşı başladığı təcavüz zamanı daşnak komitəsinin "Horizond" adlı mətbuat vasitəsi belə bir şüar bəyan etmişdir: **"Ermənilər heç bir tərəddüd göstərmədən Osmanlıya qarşı ittifaq yaratmış dövlətlərin yanındadır. Onlar var qüvvələrini Rusiyanın tapşırığına yönəltmiş və könüllü dəstələr hazırlamışdılar"** (Mehmet Hocaoğlu, "Tarihde ermeni mezalimi ve ermeniler. İstanbul. 1976. s. 570-571). Qeyd edilməlidir ki, əslində könüllü dəstələr qədər də muzdlu qatillər toplanmışdı. Çünki Rusiyanın hərbi qərargahlarında və diplomatik mərkəzlərində cızılan planı icra edəcək qədər yetərsay erməni könüllüləri yoxu idi.

Daşnaq komitəsi öz təşkilatlarına belə bir təlimatla tapşırıq vermişdi: **"Ruslar sərhədi keçərkən türklər geri çəkildikləri hər yerdə üsyanlar təşkil etməklə türkləri iki od arasında qoymaq lazımdır. Türk orduları irəlilədikdə isə erməni əsgərləri silahlarını götürüb yerlərini tərk edərək ruslarla birləşəcəklər".** (Mehmet Hocaoğlu. "Tarihde ermeni mezalimi ve ermeniler. İstanbul. 1976. s. 570-571).

Osmanlı dövlət məclisində yer alan Van deputatı Papazyan da belə bir məlumat yayımlamışdı: **"Qafqazda könüllü erməni dəstələri hazırlanaraq rus ordularının öncülləri kimi onları ermənilərin yaşadıqları bölgələrdəki strateji nöqtələri ələ keçirmək və bununla da Anadolu istiqamətində irəliləyərək oradakı erməni dəstələri ilə birləşməlidir"** (Esat Uras. Tarihde ermeniler və ermeni meselesi". İstanbul. 1976. s. 596-600).

Gizli cızılan bu planlar tamamilə yerinə yetirilmişdir. Belə ki, rus ordularının ön sıraları ermənilərdən təşkil edilmiş və şərq tərəfdən Osmanlı torpaqlarına soxulmuşdur. Türk ordusunda xidmət edən ermənilər isə "plana" uyğun olaraq silahlarını da götürüb qaçmış və məktəblərdə, kilsələrdə gizlədilən silahlarla yaraqlanaraq yeni dəstələr, terror qruplaşmaları təşkil etmişlər. Onu da xüsusi vurğulamaq vacibdir ki, bütün icra mexanizmi kilsələrdən gəlirdi və bütün kilsələr mərkəzləşmiş Akdamar kilsəsindən idarə edilirdi. Başqa sözlə, Akdamar kilsəsi ibadətgah deyil, terror qərargahı idi.

Bütün terror mexanizmi İqnatyevin planları üzrə işləyən erməni komitələri tərəfindən icra edilirdi. Bu komitələrin əsas prinsipi isə **"azad olmaq istəyirsənsə əvvəl qoşunları çaşdıran təxribatlar yarat"** – fəaliyyətinə söykənirdi. Bu prinsiplə də həmin təxribatçı terrorist dəstələr türk kənd, qəsəbə və şəhərlərində qətliamlar törədir, bununla da Türk ordularına arxadan zərbə vurmuş olurdular. Bu arxadan zərbə əməliyyatlarının əsas məqsədi isə yolları kəsmək, yaralıların təxliyə xidmətini güllələbaran etmək, körpüləri dağıtmaq, bununla da bütün vasitələrlə rusların işğalını asanlaşdırmaq olmuşdur.

Bir sıra mənbələrə əsasən vurğulamaq vacibdir ki, terror təşkilatlarının törətdikləri qətliam yalnız türk xalqına qarşı deyil, Trabzon ərazisindəki "rumlu"lara, Hakkari ərazisindəki "musəvi"lərə və başqa etniklərə qarşı da aparılmışdır (Sehemsi Kara. Turcs et Armeniens devant I Histerie". Genevie, İmperimerie National. 1919. s. 19).

ABŞ-da dərc edilən "Goçnak" adlı erməni qəzetinin 24 may 1915-ci il tarixli sayında "Vanda bir milyondan artıq türkün qırıldığı" iftixarla yazılmışdır. Həmin mənbədə o da qeyd edilmişdir ki, "**Daşnak" nümayəndələrinin 1915-ci ilin fevralında Tiflisdə toplanan "Erməni Milli Konfransı"nda vurğulanmışdır ki, "Rusiya Osmanlı ermənilərini silahlandırmaq, onların üsyana cəlb edilməsini təmin etmək üçün müharibədən öncə 242900 rus rublu vermişdir"** (Esat Uras. Tarihde ermeniler və ermeni meselesi. İstanbul. 1976. s. 604).

Beləliklə, bu gün dünya dövlətlərində erməni diaspor təşkilatlarının və onların satın aldığı bir sıra parlamentarilərin, senatorların iddia etdiyi bir milyon beş yüz min erməni ölümünün uydurma olduğunun aşkarlamaq, əksinə ermənilərin türk-müsəlmanları soyqırımına məruz qoyduqlarının dünya ictimaiyyətinə çatdırmaq çox vacibdir. Bunun üçün Osmanlı dövlətindəki erməni kütləsinin ümumi sayını müəyyən edən demoqrafik göstəricilərə nəzər salmaq, bir sıra qaranlıq məqamlara aydınlıq gətirmək üçün əhəmiyyətlidir. Bu statistika müxtəlif mənbələrdə fərqli rəqəmlərlə ortaya çıxır.

**I. Patriarxlığın verdiyi rəqəmə və bu rəqəmə əsaslanan Marçel Leatra görə 2.500.000.**

**II. Lozanna konfransı iştirakçılarından olan erməni heyətinə görə 2.300.000.**

**III. Erməni tarixçisi Basmançıyana görə 2.250.000.**

**IV. Erməni tarixçisi Gevork Aslana görə 1800.000.**

**V. "Enisklopediya Britanica"da 1500.000.**

**VI. "Revue de Paris"də 1.345.000.**

**VII. Osmanlı statistikasında 1.295.000.**

**VIII. İngilis illik statistikasında 1.56.000**.

Nəticə etibarilə Qərb mənbələrinə əsasən bu rəqəm maksimum 1.500.000-ə uyğunlaşdırıla bilər. Bu rəqəmləri müqayisə etməkdə məqsədim ermənilərin **"Türklər 1915-ci ildə bir milyon beş yüz min erməni öldürüb"** iddialarının hər şeydən öncə riyazi məntiq yalan olduğunu sübut etməkdədir. Həmin dövrdə ermənilərin ümumi sayı bir milyon yarım olduğu halda öldürülənlərin sayı haradan bir milyon yarım olardı? Bu statistika sübut edir ki, ermənilərin "soyqırım" iddiası mif və cəfəngiyatdır. Başqa sözlə, əgər ermənilərin iddia etdiyi rəqəmə uyğun ölüm faktı olsaydı hazırda Qafqazda və Türkiyədə bir nəfər də olsa erməni olmamalıydı. Çünki qırğın baxımdan iddia edilən rəqəm həmin dövrün diri ermənilərin demoqrafik göstəricisindən çoxdur. Bu isə o deməkdir ki, ermənilərin tarixən bütün prinsip və fəaliyyət mexanizmi yalan və dezinformasiya üzərində qurulub.

Erməni mahiyyətini açıqlayan bir fakt da məhz Lozanna konfransının rəsmi protokoluna əsasən həmin konfransda iştirak edən erməni heyətinin üzvləri K.Norantukyan, A.Axaryan, Ahadisyan və L.Paşalyan olmuşdur. Konfransı Ser Xoras Rumbold aparmışdır. Konfransda çıxışı zamanı erməni vilayəti yaradılmasını təkidlə vurğulayan Axaronyana Rumbold belə bir sual verir: - **"Sizin üçün ən əlverişli torpaq parçası haradır? Bunu xəritəüzərində göstərə bilərsinizmi?"**

Axaronyan xəritədə Riz, Həsənqala, Ərzurum bölgəsi ilə Muşa gedən istiqamətdə Van gölü də daxil olmaqla, İran sərhədlərinə qədər bir ərazi göstərir. Bu zaman Rumbold deyir: - **"Bu sərhədlər içərisində 700.000 ermənini yerləşdirmək mümkündürmü?" Axaronyan - "bəli, yerləşdirəcəyik"** deyə cavab verir. Bu məqamda siyasi analitika baxımdan iki məsələ müəyyənləşir.

Həqiqətən də Osmanlı ərazisində erməni dövləti yaratmaq cəhdi baş tutmadığına görə hazırkı Ermənistan adlandırılan Qərb və Rusiya Azərbaycan torpaqlarında özünə Şərqə qarşı əməliyyat meydanı yaratmaq marağı ilə ermənilərə respublika qurdu. Beləliklə, həqiqətən də ermənilərin demoqrafik statistikası cəfəng rəqəmlərlə çoxaldılıb, öldürülən ermənilərin sayı da həmçinin, çünki Lozanna konfransı protokolunda 700.000 rəqəmi var. Nurandukyanın Lozanna konfransının ikinci iclasında oxuduğu yazılı məruzənin mətnindən bir çıxarışı diqqətə çatdırmaq yerinə düşərdi. **"Dünyanın bütün millətləri bizim davamızın haqlı olduğunu və bu yurdun qurulmasını tələb edir. Baxın masanızın üstündə minlərlə Amerka və Avropa kilsələrini təmsil edən etibarlı şəxslər tərəfindən imzalanmış şikayət ərizələri vardır..."** Həmin protokolun başqa bir yerində Axaronyanın çıxışında belə bir məqam var: **"Birləşmiş Ermənistan bizim idealımız olacaqdır. Əgər bu gün müttəfiqləri** (birləşmiş xristian dövlətlərini - R.R) **bir Ermənistan yerinə kiçik bir Ermənistanla kifayətlənməyə məcbur edən çətinliklər varsa, Kilikiyada milli bir yurdun qurulması təklifini əsaslandırmaq üçün qəbul edəcəyik. Çünki İngiltərə, Fransa və İtaliyanın bizə verdiyi sözlərə güvənirik... Onlar bizi tərk etməməlidir. Bu baxımdan biz inam içindəyik".**

2 fevral 1923-cü ildə erməni heyətinin Lozanna konfransına təqdim etdiyi bildirişdəki bir nüansda diqqətə çatdırılmalıdır. **"Böyük dövlətlər Türkiyə ermənilərinin azad olması haqqında yalnız siyasi baxımdan deyil, ermənilərin ümumi müharibə zamanı ittifaq dövlətlərinə göstərdikləri saysız xidmətlər müqabilində verdikləri vədləri heç şübhəsiz ki, xatırlayırlar".** Verilən vədin nədən ibarət olduğunu açıqlayan üç hadisəni qeyd etmək zəruridir.

**I.** 1919-cu ildə Varsaşllesdə imzalanan müqavilənin 22-ci maddəsində göstərilir ki, Osmanlı imperatorluğundakı xalqları "qurtarmaq" istəmişlər. Bu xalqların da önündə erməni əhalisi nəzərdə tutulmuşdur.

**II.** Sevr müqaviləsi ilə isə 1920-ci ildə ittifaq dövlətləri müstəqil Ermənistan sərhədlərini cızdılar.

**III.** London konfransında "erməni yurdu"nun qurulmasını qərarlaşdırdılar.

Bu müddəalar aydın edir ki, tarixən türk qanına susamış arxalı erməni cəlladları dünya dövlətləri tərəfindən nə üçün dəstəklənibilər.

Buradan aydın görünür ki, Osmanlı ərazisində ona qarşı silah kimi istifadə etmək üçün kiçik də olsa yeni bir xristian, erməni dövlətinin yaradılması Avropa ölkələrinin də vacib siyasi marağı olmuşdur. Necə ki, Azərbaycan ərazisində XX əsrdə süni dövlət "Ermənistan", Qarabağda hazırda da "Artsax" yaradılıb. Bu baxımdan yeri gəlmişkən, deməliyəm ki, biz bir xalq olaraq elə zənn etməməliyik ki, ATƏT-in Minsk qrupu nümayəndələri bizə ədalətiərazi bütövlüyünü "bəxş" edəcək... Əksinə, həmsədrlər vasitəçilik etdikləri dövrdə ikili standartlardan çıxış etmiş, işğalçını öz adı ilə çağırmamış soyqırımı törədənlərlə kompromis variant təklif etmişlər.

**Osmanlı ərazisində dövlətə qarşı çıxmaqla işğalçı xarici qüvvələrin siyasi manipulyasiyasında onların maraqlarına işləyən erməni təşkilat və komitələrinin ləğv edilməsi və 1914-cü ildən etibarən bir sıra təşkilat və komitə üzvlərindən 235 nəfər erməni terror fəallarının həbsi ilə başlayan məhdudlaşdırma prinsipi olduqca təbii idi.** Bu istiqamətdə görülən tədbirlər və təxribatçı, terror düşərgələrini zərərsizləşdirmək əslində zəruri bir məsələ olaraq qarşıya çıxmışdı. Erməni kartından istifadə edərək türk xalqına qarşı təsir göstərməkdə olan dövlətlərin himayəsindəki erməni təbliğat aparatı "erməni soyqırımı" elan edildiyi gündən çoxsaylı kitabların yazılması ilə öz fəaliyyətini davam etdirib, hazırda da davam etdirməkdədir. Bu kitabların ən məşhuru İngiltərənin təhlükəsizlik təşkilatı "Vellinton House" (1914-cü ildə İngiltərənin qurduğu bir təbliğat aparatı) tərəfindən 1916-cı ildə səfir Viscount Brayzeyə və tarixçi Arnold Toynbiyə tapşırıq verilmişdi ki, həmin dövrədək olan bütün təbliğat materiallarını toplayıb bir kitab ərsəyə gətirsinlər. Belə də oldu və həmin kitab "Mavi Kitab" adlandırıldı. Kitab əslində yeni bir şey meydana gətirməmişdir. Belə ki, bir vaxtlar Tiflisdəki "Horison", Marseldəki "Armeniya", Londondakı "Ararat", New Yorkdakı "Gotchang" adlı qəzetlərdə yazılan uydurmaların toplusu idi. Lakin "Mavi Kitab"ın həmin qəzetlərdəki materiallardan iki mühüm fərqi var idi.

**I.** Yuxarıda adı qeyd edilən şəhərlərdəki müxtəlif qəzetlərdə aparılan təbliğat yerli əhaliyə pərakəndə vəziyyətdə fasiləli vaxtlara uyğun nəzərdə tutulurdusa, "Mavi Kitab" mərkəziləşmiş qaydada və daha genişçevrədə təbliğata hesablanmışdı.

**II.** Qəzetlərdəki materiallarda öldürülən ermənilərin sayı bir qayda olaraq bir milyon beş yüz min göstərilirdisə, "Mavi Kitab"da bu rəqəm altı yüz min göstərilir.

Məhz elə II müddəadakı bu təzadın özü də hadisənin şişirdildiyinə dair sübutlardandır. Qeyd edim ki, uydurma olmasına baxmayaraq, geniş ictimaiyyətə təbliğ baxımdan **"Mavi Kitab"** bir sıra ölkələrdə, xüsusən də ABŞ-da çoxsaylı tirajlarla yayımlanmışdır. Türkləri qəddar, erməniləri yazıq kimi təbliğ edən bu yalanlar, uydurmalar toplusu ABŞ-ın yüksək dairələrində on yeddi min nüsxədə paylanmışdır. Eyni zamanda "The New York Times" başda olmaqla, beş yüz əllidən çox qəzet və jurnal nəşriyyatlarında yayımlanmışdır.

"Mavi Kitab"ın saxta, yalan faktlardan ibarət olmasını sübut edən bir çox arqumentlər vardır. Bunlardan bir neçəsinin təhlilini aparmaqla möhtərəm oxuculara təqdim edəcəm.

Avstriyanın Osmanlı dövlətindəki səfirinin qərəzsiz, tərəfsiz və neytral nümayəndə olaraq, təmsil etdiyi dövlətə verdiyi rəsmi raportda bir məqam vardır: "Türklər ermənilərə zülm etdi deyə edilən iddialar şişirdilmiş və yalandır. Dövlətin zəif düşməsindən sui-istifadə edən ermənilər üsyanlar hazırlamaqla, daxildə təxribatlar törədir, türkləri isə təxribatların qarşısını almaq məcburiyyəti ilə üzləşdirirdilər". (Nikerled Klayblis. "Rusiyanın Şərq siyasəti" və Vilayəti-Şərqiyyə məsələsi". Tərcümə edəni: Habil Adəm. İstanbul. 1916. s. 178).

15 mart 2011-ci ildə "Demokratik Prinsiplər Dərnəyi"nin təşkil etdiyi konfransda iştirak edən və öz çıxışını "Erməni diasporu ölü ermənilərdən təbliğat aparmaqla diri azərilərin faciəsini unutdurmaq istəyir" tezisi ilə başlayan ingilis jurnalisti Dr. Manqo erməni uydurmalarına çox maraqlı bir açıqlama verir: **"Erməni millətçiləri rusların təhriki ilə 1878-ci ildən etibarən Osmanlı dövlətində daha çox əhalisi türklər olan Anadoluda bir erməni dövləti yaratmaq arzusuna düşmüşdülər, lakin buna müvəffəq ola bilməmişdilər. Buna baxmayaraq rus çarı onlara Azəri türklərinin torpaqlarında dövlət quracağını vəd verdi və vədini yerinə yetirdi. Nəticədə bundan ruhlanan ermənilər Qafqazda Azərbaycan torpaqları üzərində böyük Ermənistan yaratmaq iddiasına düşdülər"** (Dr. Manqo. Demokratik prinsipler dergisi" konfransı. 15 mart 2001).

Başqa bir dəlil: ABŞ-ın Lon Sville Universitetinin tarix fakültəsinin professoru Justin Me Carty "Erməni soyqırımında həqiqət varmı?" adı altında keçirilən bir konfransda deyib: "Bu gün Ermənistan adlandırılan yer Rusiyanın işğalından əvvəl Azəri türklərinin torpağı idi. Ermənilər Cənubi Qafqazın heç bir yerində bu çoxluqda olmamışdır. Onlar rus-türk müharibəsində ruslarla əlbir olmuş vəöz dövlətinə qarşı çıxaraq, düşmənlə müttəfiq olmuşdular. Bununla da ölümləri ermənilər başlamışdılar. Əvvəlcə türklər ermənilərə deyil, ermənilər türklərə qarşı təxribatçı hücumlar etdilər. Türklər də bunu cavabsız qoymadılar və bununla da qan tökülməsini türklər deyil, ermənilər yaratmışdılar.

Rus orduları tərəfindən silahlandırılan erməni dəstələri əliyalın insanları kütləvi olaraq öldürmüşdülər. Qeyd etmək lazımdır ki, Vanda müsəlmanların yüzdə 62-si, Bitlis bölgəsində yüzdə 42-si, Ərzurumda yüzdə 91-i, Diyarbəkirdə isə əhalinin yüzdə 42-si məhv edilmişdir. Rus ordusunun dəstəyi ilə ümumiyyətlə Osmanlı şəhərlərində, xüsusən də Sivasda 180 min müsəlman qətlə yetirilmişdir". (Mursel Köşe. İşğaldan Kurtuluşa. Ankara 2003. s.148-149).

Həmin müəllif digər bir yerdə göstərir ki, "Ermənilər uzun illərdir ki, millətçi ideologiyası ilə yaşayırlar. 1895-ci ildə beləydi, 1915-ci ildə də belə olub, 2005-ci lidə də belədir". (Justin Mc Carhy Tarafından TBMM Yerilen "Ermeni probleminin gerçegi" mövzulu konfransı. 24.03.2005).

Nəhayət, olduqca maraqlıdır ki, "Mavi Kitab"ın müəllifi Toynbinin özü də bir müddətdən sonra "The Wastern quastion in Grecce and Turkey" adlı əsərində "Mavi Kitab"ın sadəcə bir müharibə təbliğatı vasitəsi olduğunu söyləmiş, 1926-cı ildə "Türkiyə - bir dövlətin doğuşu" kitabında Toynbi "Mavi Kitab"ın tam əksinə olaraq, Türkiyənin yüksək dəyərlərini dövlətçilik prinsiplərini elmi-siyasi nöqteyi-nəzərlə təhlil etmişdir (Gergis de Maleville. "1915 Osmanlı-rus-ermeni trajedisi" toplumsal dönüşüm yayımları. 1998. s. 80).

Sonda bir ciddi faktı da qeyd etmək zəruridir. Vanda erməni separatçılarının törətdiyi üsyanı yatırtmaq üçün türk ordusunda zabit olaraq xidmət edən, əslən Venesueladan olan Rafael Noqalesin əsərindən bir məqamı diqqətə çatdırmaq istərdim. **"...Vanda vali olan Cövdat bəyin Vandan çıxmasından sonra ermənilər orada hakim olduqlarını zənn edərək, əliyalın bütün müsəlmanları- qoca, qadın və uşaqları süngülərlə öldürmüşdülər"** (Rafael de Noqales. Four Years Beneath the Cressent". New York 1926. s. 45). Beləliklə, bu mənbələrdən çıxan nəticələr çox aydın sübut edir ki, qondarma erməni soyqırımı haqqında yazanlar Osmanlı arxivlərinə əsasən deyil, bir vaxtlar ermənilərin və Osmanlıya hücum edən müttəfiq dövlətlərin siyasi maraqlarına müvafiq olaraq yazıblar.

Soyqırımı iddiası ilə əslində erməni təşkilat və komitələri tarix boyu türkə qarşı etdiyi terror, kütləvi qırğn və etnik təmizləmə cinayətlərini pərdələmişlər. Bu dezinformasiya prosesi hazırda erməni təşkilat və komitələrinin başında duran erməni lobbi və diasporunun məqsədli cinayətlərinə xidmət edir.

Bir vaxtlar müttəfiq xristian dövlətləri erməni əhalisindən müsəlman - türklərə qarşı necə istifadə edirdilərə, müasir dövrümüzdə də öz maraqları üçün istifadə edirlər. Xüsusi vurğulanmalı vacib məqam budur: soysuzların "soyqırım" siyasəti Türkiyə Cümhuriyyətindən təzminat qoparmaq cəhdidirsə, digər mühüm hədəfi qonşu dövlətlərə ərazi iddialarının davamıdır..

**Ruşan RUŞANZADƏ,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru,**
**AMEA-nın Fəlsəfə İnstitutunun böyük elmi işçisi.**

# "Dəyirmi masa"da "İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi" mövzusu müzakirə olunub



**Aprelin 23-də Bakıda Müəllif Hüquqları Agentliyinin (MHA), Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) birgə təşkilatçılığı ilə "İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi" mövzusunda "dəyirmi masa" keçirilib. Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə keçirilən tədbir ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyinə həsr edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Müəllif Hüquqları Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov "dəyirmi masa"nın çox əhəmiyyətli və aktual bir mövzuya həsr olunduğunu deyib. Bildirilib ki, bu il 26 aprel - Beynəlxalq Əqli Mülkiyyət Günü "İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi" devizi altında keçirilir. Bununla bağlı Dünya Əqli Mülkiyyət Təşkilatının açıqlamasında xüsusi qeyd olunur ki, qadınlarımızın səyləri nəticəsində hər gün həyatımızı zənginləşdirən və bilik sərhədlərimizi genişləndirən yeni ideyalar, faydalı kəşflər və ixtiralar əldə edilir. Yaradıcılıq sahələrində isə (kino, musiqi, ədəbiyyat, incəsənət, moda, dizayn və s.) qadınlar daim mədəniyyət konsepsiyasının özünü yenidən dərk edərək, bədii və yaradıcılıq ifadəsinin hüdudlarının axtarışı ilə bizi yeni dünyaların kəşf olunmasına və qavranılmasına sövq edirlər.

Kamran İmanov Müəllif Hüquqları Agentliyi tərəfindən Beynəlxalq Əqli Mülkiyyət Gününün 2001-ci ildən başlayaraq 18 ildir ki, qeyd edildiyini diqqətə çatdırıb. Bildirilib ki, bu günlə bağlı keçirilən tədbir, görüş, "dəyirmi masa", konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyət, müəllif-hüquq mədəniyyətinin formalaşdırılmasına dəstək vermək, biliklər cəmiyyətində kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əqli mülkiyyətin əvəzedilməz əhəmiyyətini qabarıq göstərməkdir.

MHA İdarə Heyətinin sədri vurğulayıb ki, builki tədbir müasir müstəqil dövlətimizin memarı və qurucusu ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilib.

Tarixin hökmü tarixi şəxsiyyətlərin çətinliklər və problemlər üzərində qələbəsini tanıyır. Bu qələbəni Azərbaycanın nüfuzunun artmasında, dövlətimizin başçısı İlham Əliyevin son 15 ildə düşünülmüş, müasirləşdirilmiş davamçılıq siyasətinin nailiyyətlərində, yaradıcılıqla həyata keçirilən varislik xəttində, xalqımızın Prezidentə olan dərin ehtiram və sevgisində görürük. Bu münasibəti "Əsl hakimiyyət yalnız insanlara xidmət etməklə əldə olunur" kəlamı ilə ifadə etmək mümkündür. Bugünkü reallıqlar Ulu Öndərin qələbəsidir, onun fikir və düşüncələrinin cəmiyyətimizin ən dəyərli əqli mülkiyyətinə, ictimai rəy və varidatına çevrilməsidir. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyinin izləri, gələcəyimizə yol açan fikir və düşüncələri bugünkü cəmiyyətimizin ən dəyərli əqli mülkiyyətinə, ictimai rəy və varidatına çevrilib.

AXC-nin 100 illik yubileyi barədə danışan Kamran İmanov dövlətimizin başçısının Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana verdiyi müsahibəsindəki sözləri xatırladıb: "...Tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıb. Yəni, bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır... Demokratik respublikanın ənənələri bu gün də yaşayır və müasir Azərbaycan onun hüquqi varisidir. Siyasi islahatlar üçün qısa müddətdə çox böyük işlər görülüb. Təkcə bunu qeyd etmək kifayətdir ki, qadınlara səsvermə hüququ Avropa ölkələrinin çoxundan xeyli əvvəl verilib, bir sıra başqa mühüm qərarlar qəbul edilib".

Bu il Beynəlxalq Əqli Mülkiyyət Gününün "İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi" devizi altında keçirildiyini, "dəyirmi masa"nın da bu mövzuya həsr olunduğunu söyləyən MHA İdarə Heyətinin sədri qeyd edib ki, bəşər kitabının mündəricatı qadınlardır. Dövlətimizin başçısı vurğulayıb ki, "çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, bacarıqlı siyasətçi, dövlət məmuru, görkəmli elm xadimi, iş adamı, xalqın inanıb səs verdiyi millət vəkilidir. İndi qadınlar elm və texnologiyalar sahəsinin fəal iştirakçılarıdırlar, innovasiya və yaradıcılıqla məşğul olan qadınların sayı ildən-ilə artmaqdadır. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir".

Əqli mülkiyyətə gəldikdə isə, bu fenomen heç vaxt öz-özünü təmin edən hədəf, öz-özlüyündə abstrakt vasitə olmayıb. Əqli mülkiyyət xidmətçi sahə kimi "mövcud biliklərdən yaranan və yeni biliklərlə nəticələnən" fenomendir. Bunun üçün biliklərin müəyyən səviyyəsi, infrastrukturu və daşıyıcılarının imkan və əzmi olmalıdır. Bu şəraitdə "biliklər cəmiyyəti"ndə, "biliklərə əsaslanan iqtisadiyyatda" əqli mülkiyyətin qorunması, öz növbəsində, kreativlik və innovasiyaçılığın stimullaşdırılmasında, investisiyaların yaradıcılığa və yenilikçiliyə cəlb edilməsində, innovasiyalı mühitin formalaşmasında əsas vasitədir.

Xüsusilə qeyd etmək lazımdır ki, əqli mülkiyyətin qorunmasında dövlət siyasətimizin iki istiqaməti nəzərə çarpır: fərdi kreativliyi (müəlliflik, patent hüququ) və qrup kreativliyini (folklor, ənənəvi biliklər) stimullaşdırmaq, inkişaf etdirmək və qoruyub saxlamaq. Son 25 ildə əqli mülkiyyət fenomeni nəzərəçarpan dərəcədə inkişaf edib və bu gün dünyada onun fəaliyyət konteksti yarandığı vaxtdan prinsipial olaraq fərqlənir. Həm iqtisadiyyatda, həm də cəmiyyətdə əqli mülkiyyətin yeri dəyişdirilərək, onu biliklərə əsaslanan iqtisadiyyatın dominantına, rəqəmsal cəmiyyətin vacib alətinə və mədəni irsin təhlükəsizliyinin təminatçısına çevirib. Əqli mülkiyyətin fəaliyyətinin dəyişmiş konteksti eyni dərəcədə əqli mülkiyyətə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir.

Dövlətimizin başçısının sözləri ilə desək, "müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir". Odur ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əqli mülkiyyət prioritet istiqamətlərdən biri kimi qəbul olunur və konsepsiyanın altı maddəsində, o cümlədən iqtisadi, informasiya, təhsil, insan kapitalı və mədəni irs bölmələrində əqli mülkiyyətin inkişafdakı əhəmiyyəti qabarıq göstərilərək, xüsusi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Konsepsiyanın icrası ilə bağlı müəllif-hüquq sahəsində islahatları uğurla yerinə yetirmək üçün yaradıcı fəaliyyətin, mədəni müxtəlifliyin və yenilikçiliyin köməyi ilə hüquq sahiblərinin həvəsləndirilməsinin gücləndirilməsi; istifadəçilərə leqal kontentin daha asan əldə edilməsi və daha çox seçim imkanlarının təmin edilməsi; müəllif hüququna aid yeni biznes-modellərin yaradılmasına dəstək; piratçılıqla bağlı qeyri-leqal təkliflərin azalmasına xidmət edən tədbirlərin həyata keçirilməsi üzərində iş gedir.

Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan getdikcə yeniləşir, iqtisadi islahatları reallaşdıran, iqtisadiyyatını şaxələndirən və innovativ inkişafa yol açan dövlətə çevrilir.

Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda vurğuladığı kimi, "Gələcəyimiz - innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir".

2009-cu ildən başlayaraq, Azərbaycan yuxarı-orta gəlirli ölkələr sırasındadır. Bu gün Azərbaycan tərəfdaş dövlətlər arasında etibar qazanan, tolerantlıq və multikultural ənənələri ilə səciyyələnən bir ölkədir, nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkandır.

Azərbaycan reallıqları ölkənin qlobal reytinq göstəricilərinin yüksəlməsi ilə müşayiət edilir. Dünya İqtisadi Forumunun 2017-2018-ci illər üçün Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən "Siyasətçilərə ictimai etimad" kateqoriyasında Azərbaycanın dünyada 20-ci yerə yüksəlməsi iqtidarla xalq arasında böyük etimadın olduğunu göstərir və təsdiq olunan bu etimad bir tərəfdən idarəetmənin gücünü, digər tərəfdən isə ictimai-siyasi və iqtisadi sabitliyi təmin edir. Dövlətimizin başçısının dediyi kimi, "Ölkədə sabitliyin mənbəyi xalqdır, onun iradəsi və eyni zamanda, iqtidarın apardığı siyasətdir". Həmin nüfuzlu beynəlxalq sənədə əsasən rəqabətqabiliyyətliliyinə görə Azərbaycan öz mövqeyini möhkəmləndirərək 37-ci yerdən 35-ci yerə yüksəlmişdir və bu göstəriciyə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək MDB məkanında mütləq liderdir. Davos İqtisadi Forumunun yeni elan olunan 2018-ci il üçün "İnklüziv inkişaf indeksi"nə əsasən Azərbaycan inkişaf edən ölkələr arasında üçüncü yer tutub.

Ölkə miqyasında aparılan islahatların əqli mülkiyyət sahəsinə müsbət təsir göstərdiyini vurğulayan Kamran İmanov deyib ki, Rəqabətqabiliyyətlilik İndeksinin "Əqli mülkiyyətin qorunması" alt göstəricisi üzrə Azərbaycan 4,8 bal toplayaraq 37-ci yeri tutur. Bununla da Azərbaycan 2016-2017-ci illərlə müqayisədə "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə tutduğu 71-ci yerdən 34 pillə yüksələrək, MDB ölkələri sırasında lider mövqeyini möhkəmləndirib. Prezident İlham Əliyevin ölkədə apardığı institusional islahatlar nəticəsində Müəllif Hüquqları Agentliyi hazırda dövlətimizin başçısı tərəfindən təsis edilən, dövlət və ictimai əhəmiyyət daşıyan, işçiləri dövlət qulluqçularına bərabər tutulan və mərkəzi icra hakimiyyəti orqanı statusunda təminatları olan, əqli mülkiyyət hüquqları sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimlənməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən publik hüquqi şəxsdir. Prezident İlham Əliyevin yeni Sərəncamına əsasən, əqli mülkiyyətin bütün sahələrini özündə cəmləşdirən Əqli Mülkiyyət Agentliyi yaradılır. Bunlar dövlətimizin başçısının bu sahənin institusional quruluşuna olan diqqət və qayğısının növbəti təzahürüdür.

Kamran İmanov bildirib ki, qadınlar hər bir millətin insan resurslarının çox əhəmiyyətli hissəsidir. Elm və texnologiyalar, innovasiyalar və kreativlikdə qadınlar istedad xəzinəsidir. Son illərdəki müşahidələr göstərir ki, gender asimmetriyasının azaldılması qadının rolunu ədalətli səviyyəyə qaldırmaqla yanaşı, iqtisadi inkişafa da səbəb olur. Bu da aydındır: yüksək savadlı qadın cəmiyyətin sosial-iqtisadi həyatında fəal iştirak etməklə əmək bazarının rəqabətqabiliyyətliliyinin artmasına təkan verir, bu da iqtisadiyyatda müsbət əks-səda ilə nəticələnir. Bütün bunlar gender bərabərliyinin iqtisadi əhəmiyyətidir.

Tədbirdə Kamran İmanovun "Qadınlar innovasiya və yaradıcılıqda: dəyişikliyin aparıcı qüvvəsi" mövzusunda məruzəsi dinlənilib. Məruzədə elm və tədqiqat sahəsində gender pariteti və digər məsələlərlə bağlı geniş təhlillər təqdim olunub.

Ailə, Qadin və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, bu il ölkəmiz mühüm tarixi hadisələr yaşayır. Bu günlərdə keçirilən prezident seçkilərində xalqımız tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs verərək İlham Əliyevi yenidən dövlət başçısı seçdi. Təkcə AXC-nin yaranması deyil, həm də qadınlarımızın seçib-seçilmək hüququnun 100 illiyini qeyd edən xalqımız, xüsusilə də qadınlarımız hər zaman olduğu kimi, bu seçkilərdə də fəallıq göstərdilər. Bununla da onlar sübut etdilər ki, hələ XX əsrin əvvəllərində bu hüququ əldə etməklə cəmiyyətimizin həyatında aparıcı qüvvədirlər.

Hicran Hüseynova qadınların ailə və cəmiyyətdəki aparıcı mövqeyindən, onların dövlət quruculuğunda fəal iştirakından danışıb.

Diqqətə çatdırılıb ki, ölkəmizdə dövlət qadın siyasətinin həyata keçirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Qadınlarımız əldə etdikləri uğurlara görə hər zaman Ulu Öndəri böyük hörmət hissi ilə yad edirlər. Bu gün isə həmin siyasətin Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən daha da gücləndirilməsinin şahidiyik. Qəbul olunan bir sıra dövlət proqramları ölkənin siyasi, sosial, iqtisadi, elmi, mədəni həyatında qadınların rolunun artırılmasında böyük əhəmiyyət daşıyır. Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiqi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur.

Hicran Hüseynova bildirib ki, UNESCO-nun 2013-cü il üçün hesabatlarına görə, Azərbaycan bütövlükdə tədqiqatçıların arasında qadınların xüsusi çəkisi daha çox olan ölkələr sırasındadır. 2016-cı ildə Dünya İqtisadi Forumunun metodikası əsasında gender bərabərsizliyi indeksi müəyyənləşdirilib. Bu indeks müxtəlif dəyişənlər üzrə qadınlar və kişilər arasındakı gender fərqinin səviyyəsini ölçür. Azərbaycan 144 ölkə arasında 86-cı yerdədir. Həmçinin 2007-ci ildən başlayaraq, ölkəmizdə Dövlət Statistika Komitəsinin məlumatları əsasında gender bərabərsizliyi indeksi hesablanır, ildən-ilə göstəricilərimiz müsbətə doğru irəliləyir.

Qeyd edilib ki, bu gün müstəqilliyinin 26-cı ilini yaşayan Azərbaycan istər iqtisadi, istərsə də elmi-texnoloji inkişaf baxımından dünyanın qabaqcıl ölkələri ilə bir sıradadır. Qadın peşəkarların fəaliyyəti cəmiyyətin dinamik və harmonik inkişafına təkan verir. Azərbaycan qadınları çətin sayılan neftçıxarma, kosmik tədqiqatlar, kibernetika, siyasi elmlər və digər sahələrdə uğurla çalışırlar. Ölkə rəhbərliyinin qayğısı qadınlarımızı elmi biliklərin yayılması sahəsində ardıcıl iş aparmağa, elmimizin inkişafına yeni töhfələr verməyə ruhlandırır. Yüksək intellektual potensiala malik olan qadın alimlərimizin hər biri öz sahəsində novator ideyaları, dəyərli araşdırmaları ilə təkcə Azərbaycan elmində deyil, dünya elmində izlər qoyublar. Tarixin bütün dövrlərində olduğu kimi, Azərbaycan qadınları bu gün də fəallığı, cəmiyyətin həyatına nüfuz etmələri ilə fərqlənirlər. Bu gün Azərbaycanın elm xadimlərinin sırasında qadın alimlərimiz layiqli yerlərini tutublar.

İnnovasiya və yaradıcılıq sahəsində fərqlənən bir qrup qadına MHA və AQUPDK-nın fəxri fərmanları təqdim edilib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bildirib ki, müasir müstəqil Azərbaycanın banisi ümummilli lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası ölkəmizin milli iqtisadi inkişaf modelinin formalaşmasına və islahatların uğurla həyata keçirilməsinə etibarlı zəmin yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar davam etdirilib, ölkədə qadınların sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün əlverişli mühitin daha da yaxşılaşdırılması, institusional və innovativ metodların tətbiqi istiqamətində bir sıra işlər görülüb. Bu səbəbdəndir ki, qadınlar ölkədə bütün dövlət qurumlarında, Milli Məclisdə, müxtəlif yerli və beynəlxalq təşkilatlarda, həmçinin biznes strukturlarında təmsil olunurlar.

Günay Əfəndiyeva bildirib ki, türk dünyasında, o cümlədən onun ayrılmaz hissəsi olan Azərbaycanda tarixboyu qadınlar mənəvi-əxlaqi keyfiyyətləri ilə seçilib, milli mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayıblar. Qadının ictimai fəallıq tarixi çox rəngarəngdir. ümumiyyətlə türkdilli dövlətlərdə qadınların xalq yaradıcılığına və yazılı ədəbiyyata gətirdikləri yeniliklər və innovasiyalar dünya mədəniyyətinə böyük töhfə verib, bu xalqların mütəfəkkirləri, yazıçıları, şairələri bəşəri uğurlar əldə ediblər. Müasir zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın adını xüsusi qeyd etmək istərdim. Onun təşəbbüsləri, fəaliyyəti həm ölkə daxilində, həm beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Diqqətə çatdırılıb ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu türk dünyasında yaradıcı qadınların əməyinin beynəlxalq aləmdə təbliğ olunması, mühafizəsi və gələcək nəsillərə ötürülməsi istiqamətində bir sıra layihələr həyata keçirməkdədir. Türk dünyası qadın sənətkarlarının yaradıcılıq nümunələrinin beynəlxalq səviyyədə sərgilənməsi, ortaq köklərə məxsus türkdilli xalqlar arasındakı mövcud bağların möhkəmlənməsinə təsir edəcək. G.Əfəndiyeva "Azərbaycan qadın şairlərinin poeziya antologiyası" kitabı barədə də məlumat verib. Bildirib ki, bu kitab xarici ölkələrdə maraq doğurduğu üçün hazırda fond tərəfindən italyan dilinə tərcümə olunmaqdadır və yaxın zamanda nəşrin İtaliyada təqdimatı planlaşdırılır. Kitabın digər dillərə də tərcüməsi nəzərdə tutulub.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru, professor Gülçöhrə Məmmədova bildirib ki, gender bərabərliyi əsas qanunumuzda, 1995-ci ildə qəbul edilmiş Konstitusiyamızda əksini tapıb, kişi və qadınların bərabər hüquqları təmin edilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və bu qurumun səmərəli fəaliyyəti nəticəsində ölkəmizdə gender bərabərliyi ilə bağlı bir çox problemlər aradan qaldırılmaqdadır. Gender bərabərliyi hər bir cəmiyyətin inkişafı üçün çox böyük əhəmiyyətə malik mövzudur. Müasir dövrdə ölkələrin inkişaf səviyyəsi o dövlətlərdə qadınların mövqeləri, qadınlara olan münasibət və gender bərabərliyinin səviyyəsi ilə ölçülür. Azərbaycanda 2006-cı ildə "Gender bərabərliyinin təminatları haqqında" Qanunun və digər qanunvericilik aktlarının qəbul olunması bu sahədə hüquqi baza yaradıb. Bunlar bərabərliyin təmin edilməsi istiqamətində dövlətin siyasi iradəsinin göstəricisidir.

Rektor diqqətə çatdırıb ki, gender bərabərliyinin təmin olunmasında təhsilin çox böyük rolu var. Maarifləndirmə və təhsil bu problemlərin tam həlli üçün vacib şərtlərdəndir. Qızların təhsilə cəlb olunması, ali məktəb tələbələri arasında onların faizinin artması müsbət meyillərdən xəbər verir. Bu gün ali məktəb tələbələrinin 48,2 faizini qızlar, ali təhsil müəssisələrində çalışanların 51,9 faizini isə qadınlar təşkil edir. Son beş ildə elmi tədqiqatlarla məşğul olan qadınların da sayı artıb. AzMİU-da beynəlxalq layihələrdə fəal iştirak edən qadın əməkdaşların və tələbə qızların sayı kişilərdən çoxdur. Universitetdə yeni iş formalarını və metodlarını tətbiq edən şöbələrə əsasən qadınlar rəhbərlik edirlər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) rektoru, professor Fərəh Əliyeva müasir dövrdə qadının cəmiyyətdə yeri və rolunun qiymətləndirilməsi meyarlarının məzmun və xarakterinin tamamilə yeniləndiyini söyləyib. Bildirilib ki, bu mənada ötən əsrdə inqilabi dəyişiklik edilərək qadının cəmiyyətdə mövqeyinə baxışı ənənəvi stereotiplərdən tamamilə azad olunub. Bu gün yüz illik yubileyini qeyd etdiyimiz AXC-nin ən önəmli və taleyüklü qərarlarından biri də müsəlman Şərqində ilk dəfə Azərbaycanda qadınlara səsvermə hüququnun verilməsi olub. Bu, sonralar Azərbaycan cəmiyyətində qadınların potensialına yol açmaq idi. Çox az müddətdə qadınlarımız mədəniyyət və incəsənət sahəsində aparıcı mövqelər qazana bildilər. Rektor diqqətə çatdırıb ki, ADMİU-da çalışan müəllimlərin yarıdan çoxunu qadınlar təşkil edir. Universitetdə tələbə qızların sayı da oğlanlardan çoxdur. Azərbaycanın dünyada müsbət imicinin formalaşmasında, sülhsevər, tolerant, multikultural ölkə kimi tanıdılmasında qadın mədəniyyət və incəsənət xadimlərimizin rolu olduqca böyükdür.

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İctimai Elmlər Bölməsinin akademik-katibi Nərgiz Axundova deyib ki, AMEA dövlətin əsas elmi tədqiqat mərkəzi kimi xarici ölkələr və beynəlxalq təşkilatlarla fəal əlaqələr yaradır. Müasir dövrdə insan kapitalının formalaşmasında AMEA çox böyük rol oynayır. Güclü fundamental elmi bazanı əldə etmək üçün yüksək potensialı olan kadrların yetişməsinə ehtiyac var. Bu elmi kadrların arasında qadınlar xüsusi yerə və rola malikdirlər.

Nərgiz Axundova qeyd edib ki, AMEA-da çalışanların 59 faizini qadınlar təşkil edir. Akademiyada yaradılan bir neçə yeni elmi-tədqiqat institutuna qadın alimlərimiz rəhbərlik edirlər. Qadın alimlərimizin məqalələri bir sıra nüfuzlu jurnallarda nəşr edilir, onlar, həmçinin beynəlxalq təşkilatlarda, layihələrdə təmsil olunurlar.

Digər alim və mütəxəssislər də mövzuya dair məruzələrlə çıxış edib, müzakirələrə qatılıblar.

**AZƏRTAC**


## Invitation to Tender:

**Open Municipal Infrastructure Program II, Water Supply and Waste Water in Ganja and Sheki (Phase II)**
**Deadline: 28.05.2018 at 17:00 local time**

**Country:** **Azerbaijan**
**Tender:** **International competitive bidding with pre-qualification**
**Ref-No:** **BMZ 2008.6619.4**
**Project:** Open Programme Municipal Infrastructure II
Design, Build and Operation for the WWTP Ganja (Lot 1) and WWTP Sheki (Lot 2)
KFW/BMZ 2009 66 671/GANJA_SHEKI/PH-III/C-1
**Employer:** "Azersu" Open Joint Stock Company
**Recipient:** "Ganja Sukanal" and "Sheki Sukanal" Subsidiary Open Joint Stock Companies
**Funding:** KfW Development Bank (KfW) and the Republic of Azerbaijan. Contract Award follows the current KfW Guidelines (see www.kfw.de).

**Project Measures:**

This announcement refers to the design, build and operation of the wastewater treatment plants (WWTP) in the cities of Ganja (Lot 1) and Sheki (Lot 2). Companies are invited to apply for both lots together. Both WWTPs will be constructed in two stages. This contract includes works related to stage 1 only. The related networks and main sewer collectors are part of separate work contracts.

**The scope of work of this announcement (stage 1) shall be summarized as follows:**

**Lot 1: WWTP Ganja**

In stage 1 only mechanical treatment facilities shall be constructed for the design horizon in 2020 (ca. 350.000 PE). However, the related design must already consider the required extension for stage 2 for a mechanical and biological/sludge treatment plant and the design horizon of 2035 (ca. 430.000 PE). The works will include the construction of buildings (e.g. administration building, laboratory, service building), other infrastructure at the WWTP area (e.g. roads) and a discharge channel to Goshgar-River (ca. 8.1 km). The construction period shall be 18 month plus 12 months defects notification period. The operation period shall be 12 months.

**Lot 2: WWTP Sheki**

In stage 1 a mechanical and biological/sludge treatment plant shall be constructed for the design horizon in 2020 (ca. 39.500 PE, annual average design flow 8.000 m?/day). The related design must already consider the required extension for stage 2 for the design horizon in 2035 (ca. 79.000 PE, annual average design flow 15.600 m3/day). The works will include the construction of buildings (e.g. administration building, laboratory, service building) and other infrastructure at the WWTP area (e.g. roads). The construction period shall be 24 month plus 12 months defects notification period. The operation period shall be 24 months.

All works and supplies have to correspond to the relevant European Norms (EN) and/or Deutsches Institut f?r Normung (DIN) Standards under consideration of the WHO-Guideline and the Azerbaijani laws and regulations.

Companies with qualified personnel, appropriate facilities and experience in the execution of comparable projects may request the tender documents, against the following fee at the address below:

Fee for Tender Documents: AZN 500 (USD 300)
The non-refundable fee to be transferred to the following account:
*Beneficiary's Name:* *"AZERSU" OJSC*
*INTP:* *9900001751*
*Beneficiary's Bank:* *Kapital Bank of Azerbaijan Republic, Nasimi branch 1*
*INTP:* *9900003611*
*Local currency account No:* *AZ65AIIB33070019441100216111*
*Foreign currency account* *AZ55AIIB33170018401100216111*
*Code:* *200112*
*SWIFT Code:* *AIIBAZ2X*

Upon sending of a copy of the bank transfer receipt, the tender documents will be transferred in electronic version to the applicants.

Place of bid submission: Azersu OJSC (Address as below)
Contact person: Ilqar Tagiyev,
Deputy Head, Procurement Organization and Management Department
"Azersu" Open Joint Stock Company
Tel.: +994 (012) 431 47 67 (1033), Fax.: +994 (012) 431 47 92
67, Moscow ave., AZ 1012, Baku, The Republic of Azerbaijan
email: i.tagiyev@azersu.az
intizam.novruzov@azersu.az
additional copy to: KfW Development Bank (KfW)
Department LEd4
Mr Christoph Isenmann
Palmengartenstraße 5-9
60325 Frankfurt/Main
Germany
email: christoph.isenmann@kfw.de
additional copy to: Dornier-Schneider Consulting (DSC)
Frank Ehrlicher
Augustaanlage 50
68165 Mannheim
Germany
email: frank.ehrlicher@srp-consult.de

## Tenderə dəvət

**Açıq Kommunal İnfrastruktur Proqramı II, Gəncə və Şəki şəhərlərində su təchizatı və kanalizasiya (II Mərhələ)**
**Son tarix: 28.05.2018 yerli vaxtla saat 17:00**

**Ölkə:** **Azərbaycan**
**Tender:** **İxtisas uyğunluğunun öncədən müəyyənləşdirilməsi ilə beynəlxalq rəqabətli tender**
**Kredit sazişi №:** **BMZ 2008.6619.4**
**Layihə:** Açıq Kommunal İnfrastruktur Proqramı II
Gəncə ÇSTQ-nın (Lot 1) və Şəki ÇSTQ-nın (Lot 2) layihələndirilməsi, tikintisi və istismarı
KF/BMZ 2009 66 671/GANJASHEKİ/PH-İİİ/C-1
**Sifarişçi:** "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
**Benefisiar:** "Gəncə Sukanal" və "Şəki Sukanal" Törəmə Səhmdar Cəmiyyətləri
**Maliyyə mənbəyi:** Almaniya İnkişaf Bankı (KfW) və Azərbaycan Respublikası Müqavilə KfW bankının hazırki rəhbər prinsiplərinə əsaslanır (bax:www.kfw.de).

**Layihə müddəaları:**

Bu elan Gəncə (Lot 1) və Şəki (Lot 2) şəhərlərində Çirkab Sutəmizləyici Qurğularının (ÇSTQ) layihələndirilməsi, tikintisi və istismarını əhatə edir. Şirkətlər hər iki şəhər üçün birlikdə müraciət etməyə dəvət olunurlar. Hər iki ÇSTQ iki mərhələdə tikiləcək. Bu müqaviləyə yalnız 1-ci mərhələnin işləri daxildir. Müvafiq şəbəkələr və baş kanalizasiya kollektorları digər müqavilələrin tərkib hissəsidir.

**Bu elanda (1-ci mərhələ) nəzərdə tutulan iş həcmi aşağıdakı kimidir:**

**Lot 1: Gəncə ÇSTQ**

1-ci mərhələdə 2020-ci il layihə horizonu (təqr. 350.000 əhali ekvivalenti) üçün yalnız mexaniki təmizləyici qurğular tikiləcək. Lakin müvafiq layihədə mexaniki və bioloji/lil təmizləyici qurğu və 2035-ci ilin layihə horizonu (təqr. 430.000 əhali ekvivalenti) üçün 2-ci mərhələ üzrə tələb olunan müddətin uzadılması da nəzərə alınmalıdır. Bu işlərə binaların (məs. inzibati bina, laboratoriya, xidməti bina), ÇSTQ ərazisindəki digər infrastrukturun (məs.: yollar) və Qoşqarçaya gedən təxliyyə kanalının (təqr. 8.1 km) tikintisi daxildir. Tikinti müddəti 18 ay və qüsur bildiriş müddəti 12 ay olmalıdır. İstismar müddəti 12 ay olacaqdır.

**Lot 2: Şəki ÇSTQ**

1-ci mərhələdə 2020-ci il layihə horizonu (təqr. 39.500 əhali ekvivalenti, illik orta layihə axını 8.000 m/gün) üçün mexaniki və bioloji/lil təmizləyici qurğular tikiləcək. Müvafiq layihədə 2035-ci ilin layihə horizon üçün (təqr. 79.000 əhali ekvivalenti, illik orta layihə axını 15.600 m/gün) 2-ci mərhələ üzrə tələb olunan müddətin uzadılması da nəzərə alınmalıdır. İşlərə binaların (məs. inzibati bina, laboratoriya, xidməti bina), ÇSTQ ərazisindəki digər infrastrukturun (məs.: yollar) tikintisi daxildir. Tikinti müddəti 24 ay və qüsur bildiriş müddəti 12 ay olmalıdır. İstismar müddəti 24 ay olacaqdır.

Bütün işlər və təchizatlar Avropa normaları (EN) və/yaxud Almaniya Normalar İnstitutunun (Deutsches İnstitut für Normung - DİN) standartlarına, onlar da həmçinin Dünya səhiyyə təşkilatınının nizamnaməsi və Azərbaycan Respublikasının qanun və nizamnamələrinə uyğun aparılmalıdır.

İxtisaslı işçi heyətinə, müvafiq qurğulara və oxşar layihələrin icrasında təcrübəyə malik şirkətlər tender sənədlərini müvafiq ödənişi həyata keçirməklə aşağıda qeyd olunan ünvandan əldə edə bilərlər:

Tender sənədlərinə görə ödəniş haqqı: 500 AZN (300 ABŞ dolları)
Geri ödənilməyəcək məbləğ aşağıdakı hesaba köçürülməlidir:
*Benefisiarın adı:* *"AZƏRSU" ASC*
*INTP:* *9900001751*
*Benefisiar Bank:* *Azərbaycan Respublikası Kapital bank, Nəsimi filialı-1*
*INTP:* *9900003611*
*Yerli valyuta üçün hesab nömrəsi:* *AZ65AIIB33070019441100216111*
*Xarici valyuta üçün hesab nömrəsi:* *AZ55AIIB33170018401100216111*
*Kod:* *200112*
*SWIFT Kod:* *AIIBAZ2X*

Bank ödənişi qəbzinin surəti göndərildikdən sonra, tender sənədləri elektron formada iddiaçılara göndəriləcəkdir.
Təklifin təqdim olunma yeri: Azərsu ASC (ünvan aşağıda verilir)
Əlaqəli şəxs: İlqar Tağıyev,
Satınalmaların təşkili və idarə olunması departamentinin rəis müavini
"Azərsu" Açıq Səhmdar Cəmiyyəti
Tel.: +994 (012) 431 47 67 (1033), Fax.: +994 (012) 431 47 92
67, Moskvaprospekti, AZ 1012, Bakı, Azərbaycan Respublikası
email: i.tagiyev@azersu.az
intizam.novruzov@azersu.az;
**surəti göndəriləcək:** Almaniya İnkişaf Bankı (KfW)
Departament LEd4
Xanım Ursula Heister
Palmgartenstraße 5-9
D - 60 325 Frankfurt/Main
Almaniya
email: ursula.heister@kfw.de
**surəti göndəriləcək:** Dornier-Schneider Consulting (DSC)
Frank Ehrlicher
Darmstädter Straße 13
60 424 Heppenheim
Almaniya
email: frank.ehrlicher@srp-consult.de


# PAMBIQÇILIQDA HERBİSİDLƏRDƏN İSTİFADƏYƏ DAİR TƏLİMLƏR

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti tərəfindən respublikamızda pambıqçılıqla məşğul olan sahibkarların və fermerlərin maarifləndirilməsi, alaq otlarına qarşı istifadə olunan herbisidlərdən səmərəli, düzgün və vaxtında istifadə olunmasını təmin etmək məqsədi ilə 13 aprel 2018-ci il tarixdə başlayan təlimlər bu dəfə Kürdəmir rayonunda davam edib.**



Təlimlərdə Dövlət Fitosanitar Nəzarəti Xidmətinin, Respublika Bitki Mühafizəsi Mərkəzinin, rayon bitki mühafizəsi mərkəzlərinin, rayon kənd təsərrüfatı idarələrinin, rayon aqroservis mərkəzlərinin mütəxəssisləri və mexanizatotları, kənd təsərrüfatı idarələrinin nəzdində fəaliyyət göstərən MMC-lərin mütəxəssisləri, pambıq əkini üçün müqavilə imzalamış fermer və sahibkarlar, eləcə də pestisid istehsalı ilə məşğul olan "Avqust" firmasının Azərbaycandakı rəsmi distribüteri və mütəxəssisi İbadulla Qurbanov iştirak ediblər.

Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən fermer və mexanizatorlara səpindən əvvəl alaq otlarına qarşı istifadə olunan QAMBİT (prometrin, 500 q/l) preparatının üstünlükləri, eləcə də geniş spektrdə birillik ikiləpəli və dənli taxıl bitkiləri fəsiləsindən olan alaq otlarının nəzarətdə saxlanılması, tətbiq müddətinin (əkindən əvvəl, əkin zamanı və ya bitkinin cücərməsindən əvvəl) seçim imkanının olması, sürətli herbisid effekti, uzunmüddətli qoruma təsiri, becərilən bitkilərə qarşı yüksək seçicilik, növbəli əkin zamanı gələcək məhsullara sonrakı təsirinin olmaması və istifadəsi rahat olan maye preparativ forması barədə məlumat verilib,

Təlimdə Ağsu, Zərdab, Yevlax, Ucar, Ağdaş və Bərdə rayonlarından olan mütəxəssislər və pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri iştirak ediblər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# "Akkord" Korporasiyası Gürcüstanda tenderlərin qalibi oldu

**Yerli və xarici infrastruktur layihələrin icrasında xüsusi təcrübəyə malik "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC son iki ayda Gürcüstan Respublikasında keçirilən ümumi dəyəri 59,5 milyon ABŞ dolları olan iki infrastruktur layihəsinin tenderinin qalibi elan olunub. Hər iki layihənin sifarişçisi Gürcüstan Respublikasının Regional İnkişaf və İnfrastruktur Nazirliyinin Yol Departamenti, maliyyədəstəkçisi isə Avropa İnvestisiya Bankıdır.**

Samtredia-Grigolote E-60 hissəsinin - yolunun qalmış işlərinin inşası **(REMAINING WORKS for the CONSTRUCTION SAMTREDIA-GRIGOLETI ROAD SECTION OF E-60 HIGHWAY KM 00 +000 - KM 11+500)** ilə bağlı tenderdə Gürcüstan, Azərbaycan, Çin və Türkiyə dövlətlərindən olan 14 şirkət iştirak edib. "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin 11 km-lik yolun inşası üçün verdiyi və qalib olduğu qiymət təklifi-89 mln Lari (37 mln. ABŞ dolları) təşkil edib.

Dziruli-Karagauli-Moliti-Pona-Chumateleti İkinci yolun, Moliti-Chumateleti hissəsinin yenidən qurulması **(Rehabilitation of Dziruli - Kharagauli - Moliti - Pona - Chumateleti Secondary Road, Moliti - Chumateleti Road Section from km 24+620 to km 50+244)** ilə bağlı tenderdə isə Gürcüstan, Azərbaycan, Çin və Türkiyə dövlətlərindən olan 13 şirkət iştirak edib. Respublikamızın təmsilçisi "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC bu tenderin də qalibi elan edilib. Korporasiyanın 26 km-lik yolun yenidən qurulması üçün verdiyi və qalib olduğu qiymət təklifi-54,5 mln Lari (22.5 mln ABŞ dolları) təşkil edib.

Xatırladaq ki, hazırda 11 ölkədə nümayəndəliyi mövcud olan "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC 4 ölkədə aktiv fəaliyyəti göstərir ki, onlardan da biri Gürcüstandır.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

*Mətbəx ləvazimatlarının satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər *www.acsc.az* səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2018-ci il mayın 1-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

TƏKRAR

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi qeyri-maddi aktivlərin satınalınması ilə əlaqədar

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 3 lot üzrə keçirilir.**

**Tenderin predmeti:**

**Lot 1.** Rəsmi statistika hesabatları və digər statistik məsələlər üzrə proqram təminatlarının hazırlanması işlərinin satınalınması.

**Lot 2.** Statistik vahidlərin Dövlət Reyestri üzrə proqram təminatlarının hazırlanması işlərinin satınalınması.

**Lot 3.** Əhalinin siyahıyaalınması üzrə proqram təminatlarının hazırlanması işlərinin satınalınması.

-iddiaçılar öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı formada təqdim etməlidirlər;

-müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar;

-iddiaçılar hər bir lot üzrə 500 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs: Qasımova Qönçə, telefon: (012) 538-62-57).

*Adı: Dövlət Statistika Komitəsi*
*Hesab №-si: AZ59CTRE00000000000002238401*
*VÖEN: 1300189411*
*Benefisar (alan) bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*SWİFT BİK: CTREAZ22*
*XHK 2238401(002353)*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə aidiyyəti orqanlar tərəfindən (vergi orqanı, DSMF) verilmiş arayışlar;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçının ixtisasına dair məlumatlar (sertifikatlar, lisenziyalar, analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları, işlərin yerinə yetirilməsinə rəhbərlik edəcək işçinin ixtisası və təcrübəsi və s.);*

*-işlərin keyfiyyətinə dair zəmanət.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini ikiqat zərflərdə imzalanmış və möhürlənmiş surətdə təqdim etsinlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanuna uyğun olaraq keçiriləcəkdir.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün iddiaçının potensial imkanları (işlərin icra müddəti, peşəkar kadr heyətinin mövcudluğu və s.), analoji işlərdə təcrübə.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 2018-ci il mayın 14-ü saat 18:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 2018-ci il mayın 23-ü saat 18:00-dək Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanına (əlaqələndirici şəxs: Qasımova Qönçə, telefon: (012) 538-62-57) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 2018-ci il mayın 24-ü saat 11:00-da yuxarıda qeyd olunan ünvanda 414-cü otaqda açılacaqdır.

**Tender Komissiyası.**

## AMEA İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**

**Lot 1** - Avadanlıqların təmir-quraşdırma işləri və ehtiyat hissələrinin alınması

